QARABAĞ AZƏRBAYCANDIR!

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 178 (6378) 1 oktyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Ərdoğan: Zəngəzur dəhlizi bütün bölgə üçün əhəmiyyətli fürsət olacaq

Zəngəzur dəhlizi bütün bölgə üçün əhəmiyyətli fürsət olacaq. Burada inşa olunacaq avtomobil və dəmir yolu xətləri bütün bölgə ölkələri üçün ticari-iqtisadi imkanlar yaradacaq. Azərbaycan...



Bax 4

## AZƏRBAYCAN PREZİDENTİ: "Ermənistan xəritəyə baxıb öz yerini orada tapsın, əgər taparsa..."



Bax 2

## Ceyhun Bayramov: "Ermənistanın delimitasiya prosesini ləngitməsi lazımsız gərginliyə səbəb olur"



Əlbəttə, otuz il ərzində Azərbaycan ilə Ermənistan arasında sərhədlərin müəyyən edilməməsi, delimitasiya və demarkasiya prosesinin həyata keçirilməməsi normal hal hesab edilə bilməz. Bunun əsas və yeganə səbəbi torpaqlarımızın uzun illər ərzində işğal altında...

Bax 5

## "Azərbaycanın qələbəsi son 30 ildə Avropada ən böyük hadisə oldu"



Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ərazilərinin azad olunmasını təmin edən, Cənubi Qafqazın çiçəklənən gələcəyinə və Avropanın daha yüksək təhlükəsizliyinə yol açan uğurlu müdafiə hərbi əməliyyatlarına başladı. Amerikalı...

Bax 5

## Açıq-saçıq geyinmək dəbdir, yoxsa necə?



Modaya uyğun geyinmək, hər zaman baxımlı və şık görünmək biz qadınlar üçün...

Bax 8




## Xüsusi Təyinatlı baş çavuş Tofiqin qəhrəmanlıq hekayəsi

## Azərbaycan peyvəndlərin paylanmasında ədalətli bölgünü dəstəkləyir



Bax 13

Yeni növ koronavirus COVID-19 pandemiyası bəşəriyyəti narahat edən məsələ olaraq qalır. Koronavirusun dünyada vüsət almasını...

## Etirazlar başlayıb:

### Ermənilər yeni dövlət büdcəsindən narazıdırlar



Sentyabrın 30-da Ermənistan hökumətinin iclasında gələn ilin dövlət büdcəsi layihəsi elə də çox müzakirə...

Bax 14

## Həyatına girən şəxsi külüngla öldürüb basdırdı





## Dünyada təbii qaz bahalaşır

Bax 16

## Dəbdəbəli qəbir daşlarında kimlər və niyə maraqlıdır? MARAQLI FAKTLAR



Bax 9

## "Armenianreport" Qarabağ ermənilərini qorxaqlıqda ittiham etdi



Bax 12

## Ekspertlər: ABŞ və Fransa erməniərəst mövqedədir, Rusiya isə neytrallığını qoruyur



Bax 15

## Messidən sonra "Barselona" çökür...



Bax 16

# AZƏRBAYCAN PREZİDENTİ:

## “Ermənistan xəritəyə baxıb öz yerini orada tapsın, əgər taparsa...”



Azərbaycan Prezidenti istər müsahibələrində, çıxışlarında, görüşlərində, istərsə də işğaldan azad olunmuş torpaqlara hər səfərində verdiyi mesajlar təkcə Ermənistana deyil, həm də bu ölkənin havadarlarına ünvanlanmışdı. Ölkə başçısı tam əminliklə qeyd edir ki, Dağlıq Qarabağ problemi artıq geridə qalıb, münaqişəni alovlandırmaq cəhdləri tamamilə əbəsdir. Eyni zamanda, hazırda Qarabağda yaşayan ermənilərə statusun verilməsindən söhbət gedə bilməz, bu məsələ birdəfəlik bağlanıb. Digər tərəfdən, Ermənistandan hansısa təxribat olacağı təqdirdə, Azərbaycan “Dəmir yumruğu”nu yenidən işə salaraq, düşmənin dərsini verəcək. Zəngəzur dəhlizinin açılmasına gəlincə, ölkə başçısı regionu birləşdirəcək layihənin reallaşacağını, heç kimin ölkəmizin təşəbbüsünə mane ola bilməyəcəyini lazımı ünvanların diqqətinə çatdırmış oldu.

> “Əgər Minsk qrupu Ermənistana vaxtında ciddi təzyiq göstərsəydi, təbii ki, Ermənistan məcbur olub işğal edilmiş torpaqlardan çıxacaqdı və belə olan halda müharibəyə ehtiyac qalmazdı”

Azərbaycan Prezidenti Türkiyənin Anadolu Agentliyinə müsahibəsində “Zəngəzur dəhlizi Ermənistanın normallaşma əlaqələrinə başlaması üçün bir şərtdirmi” sualını cavablandırarkən bildirib: “Biz gücümüzü bilirdik və bilirdik ki, biz bu məsələni güc yolu ilə həll edə bilərik. Ermənistan isə buna inanmırdı. İndi də hələ gec deyil. Yeni yaranmış reallığı düzgün dərk etsin, bu reallığa görə addımlar atsın, xəritəyə baxıb öz yerini orada tapsın, əgər tapa bilərsə, bir nöqtədir xəritədə və buna uyğun addımlar atsın. Belə olan halda, əlbəttə ki, bölgədə genişmiqyaslı əməkdaşlıq mümkündür”.

Dövlət başçısı onu da söyləyib ki, Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasına, əlbəttə, biz istəyirik ki, bütün bölgədə sülh olsun: “Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın təklif etdiyi 3+3 platforması hesab edirəm ki, bunun ən gözəl yolu ola bilər. Ancaq Ermənistan hələ ki, buna razılıq verməyib. İndi bu, Türkiyə Prezidenti tərəfindən səslənir, Ermənistana şans verilir. Azərbaycan bunu dəstəklədi, Rusiya dəstəklədi, İran dəstəklədi, ancaq Ermənistan bunun əleyhinə çıxır. Bunun əleyhinə çıxan Ermənistan indi bəyan edir ki, Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyir. Əgər normallaşdırmaq istəyirsənsə, sən, ilk növbədə, bu təklifə müsbət cavab ver. Əks təqdirdə, burada yenə təzad yaranır, yəni, anlaşılmazlıq yaranır. Əgər nə vaxtsa Ermənistan tərəfindən səslənən rəsmi açıqlamalar gerçək siyasətlə uzlaşsa, o zaman, əlbəttə ki, təhlil etmək daha asan olacaq. Bir də siz də yaxşı bilirsiniz ki, Ermənistan konstitusiyasında Türkiyəyə qarşı torpaq iddiası var, ondan əl çəkməlidir. Öz konstitusiyasını yenidən işləyib qəbul etməlidir. Ermənistan kimi gücsüz və bu gün tamamilə darmadağın edilmiş ölkə Türkiyə kimi nəhəng ölkəyə qarşı necə torpaq iddiasında ola bilər? Bu, psixi xəstəliyə bənzəyən bir şeydir. Ona görə Türkiyəyə və Azərbaycana qarşı iddialardan əl çəkməlidirlər. Azərbaycanla olan münasibətləri normallaşdırmalıdırlar və mən əminəm ki, Türkiyə tərəfi hər zaman bölgədə sülhün və genişmiqyaslı əməkdaşlığın tərəfdarı olub. Bu gün də belədir və Türkiyədən çox müsbət siqnallar gəlir”.

### “İndi olmayan işğalı görən, əlbəttə ki, ya kordur, ya nankordur”

Bəli, işğalı 30 il ərzində görməyən, indi olmayan işğalı görən, əlbəttə ki, ya kordur, ya nankordur, ya da, sadəcə olaraq, riyakardır. Prezident İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə müsahibəsində “Zəngəzur dəhlizi Ermənistanın normallaşma əlaqələrinə başlaması üçün bir şərtdirmi” sualını cavablandırarkən deyib: “Noyabrın 10-da imzalanmış Bəyanatda təsbit edilir və Ermənistan öz üzərinə bu öhdəliyi götürüb. Birincisi, əgər o, bu öhdəliyi icra etməyəcəksə, onda hansı normallaşmadan söhbət gedir? İkincisi, Ermənistanda, - yenə də qayıdıram əvvəlki fikirlərimə, - postmüharibə dövrünü çox düzgün təhlil etməlidirlər. Artıq vəziyyət tam fərqlidir. İndiki durum güc nisbətini açıq-aydın göstərir. İşğal dövründə də bilirdik ki, bizim imkanımız nədir, Ermənistan ordusunun imkanı nədir. Biz bilirdik ki, balansı öz xeyrimizə çoxdan dəyişdirmişik. İndi bunu bütün dünya görür. Ona görə indiki şəraitdə mən hesab edirəm ki, Ermənistan Azərbaycanla münasibətləri normallaşdırmaq üçün daha çox səy göstərməlidir. Çünki onlar üçün bu, önəmlidir. Biz bunsuz da yaşaya bilərik, necə ki, yaşamışıq, indi də yaşayırıq. İndi daha yaxşı yaşayacağıq. Çünki o böyük əraziyə yenə də sahib olduq, öz doğma torpağımıza qayıtdıq. Onların durumu daha da pisləşdi. Ona görə daim münaqişədə olmaq, qonşularla əsassız, saxta tarix əsasında gələcək əlaqələri planlaşdırmaq çox yanlış bir addımdır. Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə əlaqələri normallaşdırsın, eyni zamanda, Azərbaycanla münasibətləri normallaşdırsın. Türkiyə və Azərbaycanla öz sərhədlərini müəyyən etsin, delimitasiya, demarkasiya aparılsın. Onlar buna çox maraqlıdır, nəinki biz. Çünki bu olmasa, deməli, sərhəd yoxdur. Bilirsiniz indi Ermənistanda və bəzi xarici siyasətçilər bizi ittiham edirlər ki, biz Ermənistanı işğal etmişik. Birincisi, bu, yalandır. İkincisi, bəs Ermənistan bizim əraziləri işğal edəndə niyə səsinizi qaldırmırdınız? Niyə gözünüzü yumurdunuz? Otuzillik işğal dövründə bizim bütün tarixi, dini abidələrimiz yerlə bir edildi. Bütün binalar söküldü. Bunu görmürdünüz? Minsk qrupunun həmsədrləri dəfələrlə orada olublar, Ağdamda da olublar, Kəlbəcərdə də olublar, Füzulidə də, Cəbrayılda da, görmürdülərmi?

> “Ermənistan kimi gücsüz və bu gün tamamilə darmadağın edilmiş ölkə Türkiyə kimi nəhəng ölkəyə qarşı necə torpaq iddiasında ola bilər? Bu, psixi xəstəliyə bənzəyən bir şeydir”

Ardı Səh. 3

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Kürdəmir rayonunun Ağsu-Kürdəmir-Bəhrəmtəpə (26 km)-Qarasaqqal-Cəyli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev A.M.Əsgərovun “Azərbaycan” nəşriyyatının baş direktoru vəzifəsindən azad edilməsi haqqında Sərəncam verib. Sərəncamla Ağabəy Məmməd oğlu Əsgərov “Azərbaycan” nəşriyyatının baş direktoru vəzifəsindən azad edilib. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# AZƏRBAYCAN PREZİDENTİ:

# "Ermənistan xəritəyə baxıb öz yerini orada tapsın, əgər taparsa..."

Əvvəli Səh. 2

Otuzillik işğal dövründə, cəmi iki dəfə faktaraşdırıcı missiya göndərildi və məruzə hazırlandı. Ermənilərin bütün cinayətləri məruzədə göstərildi. Sonuncu belə bir missiya təqribən 10 il əvvəl həyata keçirilmişdi. Biz dəfələrlə Minsk qrupuna, onun həmsədrlərinə müraciət etdik ki, yenə də missiya göndərin. Çünki orada qanunsuz məskunlaşma gedir, Suriyadan, Livandan, başqa yerlərdən ermənilər gətirilir, məskunlaşdırılır. Bu, hərbi cinayətdir. Bütün beynəlxalq konvensiyalara görə bu, hərbi cinayət sayılır. Etmədilər onu. Ona görə bu işğalı 30 il ərzində görməyən, indi olmayan işğalı görən, əlbəttə ki, ya kordur, ya nankordur, ya da, sadəcə olaraq, riyakardır. Bu, daha düzgün ifadə ola bilər.

Biz isə öz dədə-baba torpağımıza qayıtmışıq. Biz 30 il orada olmamışıq. Əgər Ermənistan tərəfi deyirsə ki, sərhəd oradan keçir, nə üçün orada heç kim yox idi? Sərhəddirsə, gəl sərhədi qoru. Biz gəldik, o dağlara yerləşdik. Bizim xəritələrə görə biz öz ərazimizdə yerləşmişik. Əgər Ermənistan tərəfi fərqli fikirdədirsə, gəlsin, otursun, bizimlə bərabər bunu müzakirə edək, bir il çəkər, beş il çəkər, otuz il çəkər, kim bilir. Yenə də qayıdıram bu söhbətə. Sərhədlər məsələsində bu gün Ermənistan reallığı dərk etməlidir. O, tezliklə bizim şərtlərimizə əməl edib, onları qəbul edib, bu məsələni həll etməlidir ki, artıq hər kəs bilsin, onun sərhədi harada yerləşir".

Bəli, bu gün Ermənistan reallığı dərk etmir, çünki dərk etsəydi anlayardı ki, 44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu darmadağın edildi. Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. Bir sözlə, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

### "Ermənistanda hakimiyyətə yeni gəlmiş rəhbərlik çox böyük xəta törətdi və..."

Azərbaycan Prezidenti Türkiyənin Anadolu agentliyinə müsahibəsində "Azərbaycan nə üçün əks-hücuma keçdi" sualına cavabında söyləyib ki, son vaxtlar Ermənistanın bizə qarşı təxribatları müntəzəm xarakter almışdı: "Həm bizə qarşı yönəlmiş açıqlamalar, eyni zamanda, addımlar onu göstərirdi ki, Ermənistan yeni müharibəyə hazırlaşır. Mən bunun səbəblərini bu günə qədər də anlaya bilmirəm. Çünki 30 il ərzində digər dövlətin torpaqlarını işğal altında saxlayan bir dövlət yeni savaşa çıxmaq fikrində olursa, bu, çox ciddi araşdırılmalıdır ki, bunun səbəbi nədir".

Dövlətimizin başçısı sözünün təsdiqi olan addımların göz qabağında olduğunu bildirərək deyib: "Çünki iyul ayında Ermənistan Azərbaycan-Ermənistan sərhədində hərbi təxribat törətmişdir və bu təxribat nəticəsində 13 mülki şəxs və hərbçi həlak olmuşdur. Azərbaycan o zaman düşmənə layiqli cavab verdi. Ancaq biz dövlət sərhədini keçmədik. Yəni, sadəcə olaraq, onları girdikləri Azərbaycan ərazisindən çıxardıq və bir neçə gün davam edən toqquşma sona çatdı. Ondan sonra avqust ayında bir təxribat qrupu göndərildi, təmas xəttini keçdilər və orada bizim hərbçilərimiz onları tərk-silah etdilər. Bir il bundan əvvəl Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının sessiyasında çıxış edərkən mən demişdim ki, Ermənistan yeni savaşa hazırlaşır. Üç gün sonra artıq yenidən bizim mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə tutulmuşdu, yenə də şəhidlər verdik və mənim əmrimlə genişmiqyaslı əks-hücum əməliyyatına başladıq və bildiyiniz kimi, bu əməliyyat böyük Zəfərlə nəticələndi".

> **"Bəs Ermənistan bizim əraziləri işğal edəndə niyə səsinizi qaldırmırdınız? Niyə gözünüzü yumurdunuz? Otuzillik işğal dövründə bizim bütün tarixi, dini abidələrimiz yerlə bir edildi. Bütün binalar söküldü. Bunu görmürdünüz?"**

Prezident İlham Əliyev qeyd edib ki, bir il əvvələ qayıdarkən, bütün bu prosesləri hadisələri daha da dəqiq təhlil etmək imkanımız olur və görünür ki, Ermənistan rəhbərliyi, hakimiyyətə yeni gəlmiş rəhbərlik hansısa hərbi uğurla da öyünmək istəyirdi, hansısa hərbi uğur əldə etmək istəyirdi. Ancaq hesablamaları çox səhv apardılar, çox böyük xəta törətdilər və bunun nəticəsində acı məğlubiyyətə uğradılar. Dövlət başçısı Anadolu agentliyinə müsahibəsində müharibənin qarşısının alınması imkanlarından danışarkən bildirib ki, İkinci Qarabağ müharibəsinin başlanmasında ən böyük məsuliyyət Ermənistanın və eyni zamanda, onu vaxtında dayandırmayan böyük dövlətlərin üzərinə düşür: "Əgər Minsk qrupu Ermənistana vaxtında ciddi təzyiq göstərsəydi, təbii ki, Ermənistan məcbur olub işğal edilmiş torpaqlardan çıxacaqdı və belə olan halda müharibəyə ehtiyac qalmazdı. Ancaq onlar bu təzyiqi etmədilər. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən üç dövlət Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür. Yəni, onlar dünya miqyasında ən güclü ölkələr sayılır. Məgər, onların siyasi çəkisi, siyasi imkanları olmayıb ki, Ermənistana bu ciddi mesajları göndərsinlər? Sadəcə olaraq, nə hərb, nə sülh siyasətinə üstünlük verirdilər".

Minsk Qrupunun həmsədrlərinə və digər böyük dövlətlərə Ermənistana sanksiyalar tətbiq edilməsi barədə dəfələrlə müraciət etdiyini xatırladan Azərbaycan Prezidenti deyib: "Bu da savaşın qarşısını ala bilərdi. Çünki bu sanksiyalar Ermənistan üçün böyük çətinliklər yaşadacaqdı və onlar məcbur olub bizim torpağımızdan çıxacaqdılar. Yəni, biz bütün imkanlardan istifadə etdik ki, bunu sülh yolu ilə çözək, müharibə olmasın, qan tökülməsin. Ancaq bununla bərabər, mən deyirdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Nəyin bahasına olursa-olsun öz torpağımızı azad edəcəyik və sadəcə olaraq, şans verirdik".

### "Minsk Qrupu, sadəcə olaraq, bu məsələni həll etmək fikrində deyildi"

"Minsk Qrupu, sadəcə olaraq, bu məsələni həll etmək fikrində deyildi və biz 44 günlük müharibə zamanı bunu bir daha gördük. Çünki Birləşmiş Millətlər Təşkilatında bizə qarşı məsələni qaldıran Minsk qrupuna həmsədrlik edən bəzi ölkələr idi. Müharibə gedir, biz öz torpağımızda beynəlxalq hüququ bərpa edirik, ədalət savaşına çıxmışıq. Ancaq Birləşmiş Millətlər Təşkilatında bizə qarşı hansısa sanksiya məsələsini ortaya atmaq tamamilə ədalətsizlikdir",-deyən dövlət başçısı sözünə davam edərək deyib: "İndiki dövrə gəldikdə, Minsk qrupunun fəaliyyətini biz demək olar ki, görmürük. Adətən onlar danışıqlar prosesi dövründə gəlirdilər, təkliflər verirdilər, prezidentlər səviyyəsində keçirilən görüşlərin gündəliyini təsbit edirdilər, bizə təkliflər edirdilər ki, hansı məsələlər müzakirə oluna bilər. Hər iki tərəf də razılaşma əsasında bu məsələləri müzakirə edirdi. İndi isə müharibənin bitməsindən bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, onlardan hər hansı bir təklif yoxdur. Bir dəfə Azərbaycana gəlmişdilər və mən onlara dedim ki, siz təklif verin. Biz bu məsələni həll etdik, Dağlıq Qarabağ münaqişəsi başa çatdı, "Dağlıq Qarabağ" adlı inzibati ərazi, yəni, qurum mövcud deyil".

Prezident İlham Əliyev qeyd edib ki, belə olan halda Minsk qrupunun fəaliyyəti üçün bu gün yeni məsələlər ortalığa çıxmalıdır: "Yəni, məsələ - Dağlıq Qarabağ münaqişəsi bitdi. Nə ola bilər? Mənim fikrimcə, yəni, etimad tədbirləri, ondan sonra yolların açılması, dəhlizlərin açılması, sülh prosesinə dəstək vermək, Ermənistan-Azərbaycan əlaqələrini tənzimləmək, çalışmaq ki, Ermənistan-Azərbaycan arasında bizim təklif etdiyimiz sülh müqaviləsi imzalansın. Yəni, məncə, onların fəaliyyət dairəsi bu gündən sonra bundan ibarət olmalıdır".

Azərbaycan Prezidenti deyib ki, İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupundan bu günə qədər bizə hər hansı bir təklif verilmədi: "Təklif olmadığı təqdirdə Minsk qrupunun fəaliyyəti haqqında danışmaq yersizdir. Yəni, bir il artıq keçir. Nə təklif edirsən? Deyirsən ki, bu münaqişə həll edilməlidir. Mən Azərbaycan olaraq deyirəm ki, bunu həll etmişəm, təkbaşına, bütün təzyiqlərə rəğmən. Ona görə bu təklif olmalıdır. Nə ilə məşğul olmalıdır? Mən öz fikirlərimi ifadə etdim. Qalan şeylər isə onların məsuliyyətidir".

### Azərbaycan Prezidenti Anadolu agentliyinə müsahibəsində üçtərəfli Bəyanatın icrası ilə bağlı fikirlərini açıqlayıb

"Üçtərəfli Bəyanatdakı əsas məsələlər öz həllini tapdı. Bildiyiniz kimi, Ermənistan bu Bəyanata imza atmaqla öz üzərinə öhdəliklər götürmüşdür və bu öhdəlikləri məcbur olub yerinə yetirdi. Bu öhdəliklərin yerinə yetirilməsi müharibədən dərhal sonra baş vermişdir. Yəni, o zaman işğal altında olan bölgələrdən erməni qüvvələrinin çıxarılması orada açıq-aydın göstərilirdi və müharibə bitəndən sonra 20 gün ərzində Ağdam, Kəlbəcər və Laçın rayonları bizə qaytarıldı". Bu barədə Prezident İlham Əliyev Türkiyənin Anadolu agentliyinə müsahibəsində bildirib.

Bəyanatdakı maddələrin icrasından danışan dövlətimizin başçısı deyib: "O zaman Ermənistan bu məsələyə çox məsuliyyətli yanaşırdı. Nə üçün? Çünki qorxu içində idi. Çünki bilirdi ki, əgər 10 noyabr tarixində bu Bəyanatı imza atmasaydı, onların durumu daha pis ola bilərdi. Yəni, bizi dayandıracaq bir qüvvə yox idi və savaş dönəmində dəfələrlə mən Azərbaycan xalqına müraciət edərək deyirdim ki, Ermənistan bizə tarix versin, təqvim versin nə zaman bizim torpaqlarımızdan çıxır, biz dərhal müharibəni dayandırmağa hazırıq. Bu tarix bizə noyabrın 9-da verildi, Ermənistan faktiki olaraq kapitulyasiya, yəni, təslim aktını imzaladı və noyabrın 10-da müharibə dayandı. Ona görə o önəmli məsələlərin həlli Ermənistanın qorxu içində olmasından qaynaqlanır".

### "İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir"

Sülhməramlı qüvvələr gəldikdən bir müddət sonra qalan məsələlərin icrasının dayandığını qeyd edən Prezident İlham Əliyev buna misal olaraq Ermənistandan sülhməramlı qüvvələrin məsuliyyətində olan ərazidən - Laçın dəhlizindən azad edilmiş torpaqlara 62 nəfərdən ibarət təxribat qrupu göndərildiyini xatırladaraq bunun 10 noyabr Bəyanatına tam zidd olduğunu bildirib.

"Digər məsələ dəhlizlərin açılmasıdır. Noyabrın 9-dan 10-na keçən gecə imzalanmış Bəyanatda göstərilir ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantı olmalıdır. Bu, bağlantı təmin edildimi? Xeyr. Amma bu bağlantını təmin etmək üçün o qədər də böyük zamana ehtiyac yoxdur. Orada quru yollarla məsafə cəmi 40 kilometrdir. Biz müharibədən sonra keçən bir il ərzində min kilometrdən çox yol çəkdik - həm torpaq yol, həm asfalt yol. İndi orada 40 kilometr yolun açılması böyük problem deyil. Ancaq buna baxmayaraq, - hətta Ermənistan buna razılıq da verib, - aparılan müzakirələr nəticəsiz qalıb. Yəni, Ermənistan 10 noyabr Bəyanatını, onun şərtlərini kobudcasına pozur. Biz hələlik səbirli, təmkinli davranırıq. Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış Bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın", - deyə dövlətimizin başçısı vurğulayıb.

*Ardı Səh. 4*

# AZƏRBAYCAN PREZİDENTİ:

# "Ermənistan xəritəyə baxıb öz yerini orada tapsın, əgər taparsa..."

Əvvəli Səh. 3

### "Ermənistanın yenidən silahlanması ilə bağlı bizim narahatlığımız Rusiya tərəfindən anlayışla qəbul olunur"

Azərbaycan Prezidenti müsahibəsində Ermənistanın yenidən silahlanması ilə bağlı məsələyə də aydınlıq gətirib: "Ermənistanın yenidən silahlanması ilə bağlı bizim narahatlığımız Rusiya tərəfindən anlayışla qəbul olunur". Dövlətimizin başçısı deyib ki, bu məsələdən xəbər tutanda biz dərhal Rusiya tərəfinə sorğu göndərdik və maraqlandıq ki, əcəba bu, nə məsələdir: "Biz eyni fikirləri də bölüşürük. Ancaq bizə məlumat gəldi ki, Ermənistan mediasında çıxan bu açıqlama həqiqəti əks etdirmir. Yəni, Rusiya müdafiə naziri belə sözlər deməmişdir. Bu, Ermənistan təbliğatının növbəti çirkin əməlidir, belə söz deyilməmişdir. Bizə rəsmi qaydada bildirildi ki, belə planlar yoxdur. Ermənistan ordusunun yenə də pulsuz silahlandırılması ilə bağlı Rusiya tərəfindən yetərincə dəqiq cavab aldıq və biz bu məsələni artıq gündəlikdən çıxardıq".

Azərbaycan Prezidenti qeyd edib ki, bu, Ermənistanın öz çirkin əməllərindən əl çəkmədiyini göstərir. "Bax ortalığa atılan bu yalan, birincisi, çox böyük yanlışlıqdır. Çünki əgər sən Rusiya müdafiə nazirinin demədiyi sözləri yayırsansa, bu, ən azı məsuliyyətsizlikdir və bu, təxribatdır. İkincisi, - bunu biz işğal dövründə və işğaldan sonra dəfələrlə görmüşük, - Ermənistan və Rusiyada fəaliyyət göstərən erməni lobbisi hər gün, müntəzəm olaraq çalışır ki, Rusiya-Azərbaycan münasibətlərində bir çat yaransın. Onların gündəlik peşəsi Azərbaycanı ləkələmək, Rusiya mediasında Azərbaycan haqqında mənfi imic yaratmaq, Rusiya-Azərbaycan münasibətlərinə kölgə salmaqdır. Hesab edirlər ki, belə olan halda, revanşist qüvvələr nə vaxtsa yenə də baş qaldırıb bizə qarşı yeni savaşa çıxa bilərlər. Amma onlar yanılırlar. Birincisi, Rusiya-Azərbaycan münasibətləri kifayət qədər yüksəksəviyyəli münasibətlərdir. Biz bütün məsələləri açıq şəkildə müzakirə edirik - prezidentlər səviyyəsində, müdafiə və xarici işlər nazirləri səviyyəsində. Hansısa tərəfi narahat edən istənilən məsələ ilə bağlı biz dərhal təmasda oluruq və məsələləri həll edirik".

### "Prezident Rəcəb Tayyib Ərdoğanın təklif etdiyi 3+3 platforması bölgədə sülhün ən gözəl yolu ola bilər"

"Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasına gəldikdə, əlbəttə, biz istəyirik ki, bütün bölgədə sülh olsun. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın təklif etdiyi 3+3 platforması hesab edirəm ki, bunun ən gözəl yolu ola bilər",-deyən Prezident İlham Əliyev Türkiyənin Anadolu agentliyinə müsahibəsində bildirib.

Dövlətimizin başçısı deyib ki, Ermənistan hələ ki, buna razılıq verməyib: "İndi bu, Türkiyə Prezidenti tərəfindən səslənir, Ermənistana şans verilir. Azərbaycan bunu dəstəklədi, Rusiya dəstəklədi, İran dəstəklədi, ancaq Ermənistan bunun əleyhinə çıxır. Bunun əleyhinə çıxan Ermənistan indi bəyan edir ki, Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyir. Əgər normallaşdırmaq istəyirsənsə, sən, ilk növbədə, bu təklifə müsbət cavab ver. Əks təqdirdə, burada yenə təzad yaranır, yəni, anlaşılmazlıq yaranır. Əgər nə vaxtsa Ermənistan tərəfindən səslənən rəsmi açıqlamalar gerçək siyasətlə uzlaşsa, o zaman, əlbəttə ki, təhlil etmək daha asan olacaq".

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan konstitusiyasında Türkiyəyə qarşı torpaq iddiası var, ondan əl çəkməlidir. Öz konstitusiyasını yenidən işləyib qəbul etməlidir. "Ermənistan kimi gücsüz və bu gün tamamilə darmadağın edilmiş ölkə Türkiyə kimi nəhəng ölkəyə qarşı necə torpaq iddiasında ola bilər? Bu, psixi xəstəliyə bənzəyən bir şeydir. Ona görə Türkiyəyə və Azərbaycana qarşı iddialardan əl çəkməlidirlər. Azərbaycanla olan münasibətləri normallaşdırmalıdırlar və mən əminəm ki, Türkiyə tərəfi hər zaman bölgədə sülhün və genişmiqyaslı əməkdaşlığın tərəfdarı olub", - deyə Prezident İlham Əliyev bildirib.

### "Ağa qara, qaraya ağ demək" onların xislətidir"

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə müsahibəsində jurnalistin "Zaman-zaman Ermənistan silahlı qüvvələri və siyasətçilər tərəfindən müxtəlif fikirlər, bəyanatlar səsləndirilir. Müdafiə Nazirliyi belə açıqlamalar verərkən, baş nazir Paşinyan Türkiyə ilə görüşmək istədiyinə dair ifadələr səsləndirir. Belə cümlələri var. Ötən həftələrdə bunu bir neçə dəfə təkrarladı. Paşinyanın bu sözlərini Siz necə dəyərləndirirsiniz" sualına cavabında deyib: "Müharibədən öncə və müharibə zamanı Ermənistan rəhbərləri tərəfindən o qədər təzadlı, o qədər yanlış və yalan bəyanatlar olmuşdur ki, onların sayı-hesabı yoxdur".

Dövlət başçısı bildirib ki, indi belə misalları saatlarla gətirmək olar: "Biz şəhərləri, kəndləri azad edərkən onlar bildirirdilər ki, guya bizim şəhərlərimizi yenidən işğal edirlər. Artıq Azərbaycanın azad edilmiş şəhərlərində bayraqlar qaldırılarkən onlar bunu inkar edirdilər. Yəni, "ağa qara, qaraya ağ demək" onların xislətidir. Ona görə onlar hər hansı bir açıqlama verəndə, sözün düzü, biz bunu ciddiyə almırıq. Bunu analiz etmək, dəqiqləşdirmək lazımdır. Çünki bu açıqlamalar bir yalanın, gerçəkləşməyən arzuların, xülyaların və təxribatların sintezidir. Bugünkü Ermənistan, bax, budur. Biz deyəndə ki, bu, uğursuz dövlətdir, - yəni, bunun beynəlxalq adı da var - "Failed state", - bunu nəzərdə tuturuq. Hər bir dövlətin dövlətçilik rəmzlərindən biri də məsuliyyətli davranışdır. Biz isə bunu görmürük".

Bir sözlə, Ermənistan istəsə də, istəməsə də yeni reallıqları qəbul etməlidir. Heç vaxt unutmamalıdır ki, "dəmir yumruq" yerindədir. Və onu da unutmamalıdır ki, Azərbaycan Prezidentinin "düz yola gəlin" mesajına əməl etməməyin acısı belə olmalı idi - məğlubiyyət! Düz yola gəlməməyin səbəbidir ki, sentyabrın 27-də işğalçı ölkənin törətdiyi təxribata atekvat cavabı olaraq Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Sübut edildi ki, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan ilə Çex Respublikası arasında əlaqələrin inkişafı üçün böyük imkanlar var

*Prezident İlham Əliyev Çex Respublikasının xarici işlər nazirini qəbul edib*



Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çex Respublikasının xarici işlər naziri Yakub Kulhaneki qəbul edib. AZƏRTAC xəbər verir ki, görüş zamanı 2015-ci ildə Azərbaycan Respublikası ilə Çex Respublikası arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədən irəli gələn əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsinin vacibliyi vurğulandı. Qeyd edildi ki, Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanekin Azərbaycana səfəri postkovid dövründə münasibətlərimizin perspektivlərinin nəzərdən keçirilməsi, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, ticarət, iqtisadiyyat, investisiya qoyuluşu, nəqliyyat, enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradır.

Yakub Kulhanek Çex Respublikası əsgərlərinin Əfqanıstandan təxliyə edilməsi işində Azərbaycanın göstərdiyi köməyə görə minnətdarlığını bildirdi.

# Ərdoğan: Zəngəzur dəhlizi bütün bölgə üçün əhəmiyyətli fürsət olacaq



Zəngəzur dəhlizi bütün bölgə üçün əhəmiyyətli fürsət olacaq. Burada inşa olunacaq avtomobil və dəmir yolu xətləri bütün bölgə ölkələri üçün ticari-iqtisadi imkanlar yaradacaq. Azərbaycan bu dəhlizin reallaşması üçün genişmiqyaslı işlər görür. Təbii ki, Ermənistan tərəfi də öhdəliklərini yerinə yetirməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Soçi səfərindən qayıdarkən media nümayəndələrinə açıqlamasında bildirib.

Soçi səfəri zamanı Rusiya Prezidenti Vladimir Putinlə müxtəlif mövzuların müzakirə olunduğunu deyən Türkiyə Prezidenti bildirib: "Görüşümüzün əsas mövzusu regional məsələlər idi. Suriya, Qarabağ, Liviya və Əfqanıstanda baş verənləri ətraflı şəkildə dəyərləndirmək imkanımız oldu. Eyni zamanda, Azərbaycan məsələsini də müzakirə etdik. Atıla biləcək birgə addımlar haqqında səmimi və səmərəli fikir mübadiləsi apardıq".

Müzakirə olunan digər məsələlərə toxunan Prezident Ərdoğan deyib: "Səfər çərçivəsində Rusiya Prezidenti ilə strateji əməkdaşlıq sahəsi olaraq gördüyümüz enerji sahəsində mövcud əməkdaşlığı daha da inkişaf etdirmək barədə razılığa gəldik. Türk axını və Akkuyu Atom Elektrik Stansiyası layihələri ilə bağlı vəziyyəti qiymətləndirdik. Turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığımızı inkişaf etdirməyin vacibliyini də vurğuladıq. Rusiya bizə turizm sahəsində çox ciddi dəstək verdi. Turizmlə bağlı yaşadığımız problemləri Rusiyadan gələn turistlər sayəsində aradan qaldırdıq".

Yaxın zamanda Rusiya Prezidentinin Türkiyəyə səfər edəcəyini bildirən Rəcəb Tayyib Ərdoğan Yüksək Səviyyəli Strateji Şuranın Toplantısının da Türkiyədə keçirilməsi ilə bağlı razılıq əldə olunduğunu diqqətə çatdırıb.

## Azərbaycan Prezidentinin Anadolu Agentliyinə və “France-24” telekanalına müsahibələri dünya mətbuatında!


noi +10°C $ 17.68 € 20.65
Если бы все соседи построи
такие же отношения, как
Турция и Азербайджан, то в
мире не было бы никаких
войн. Заявление
29 сен. 9:00
**Отношения Азербайджана и Турц после Второй Карабахской войны подписания Шушинской деклара поднялись на еще более высокий уровень.**

noi +10°C $ 17.68 € 20.65
Алиев допустил встречу с Пашиняном
28 сен. 20:40 В мире 415 0
**Президент Азербайджана Ильхам Алиев допустил возможность встречи с премьер-министром Армении Николом Пашиняном. Об этом он сказал в интервью телеканалу France 24.**
Алиев напомнил, что после завершения войны в Нагорном Карабахе в ноябре прошлого года встречался с Пашиняном один раз — на трехсторонних переговорах в Москве, организованных российским лидером Владимиром Путиным в январе.
«У нас больше не было шансов

noi +10°C $ 17.68 € 20.65
Ильхам Алиев: "Мы подходим к будущему сквозь призму мира"
сен. 17:30 В мире 416 0
**зербайджан хочет, чтобы войны с рменией больше не было, и не ачнет войну, если только с омянской стороны не поднимут лову реваншистские тенденции и не зникнет какая-то угроза, которую жно будет уничтожить.**
к сообщает АЗЕРТАДЖ, об этом езидент Азербайджана Ильхам иев сказал в интервью Анатолийскому агентству Турции.

**Moldovanın nüfuzlu “noi.md” xəbər portalı Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə və Fransanın “France-24” televiziya kanalına müsahibələri ilə bağlı geniş məqalələr dərc edib.**

AZƏRTAC xəbər verir ki, məqalələrdə Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi fikirlərə daha çox diqqət ayırıb. Məqalələrdə Prezident İlham Əliyevin sitatlarına istinadla qeyd edilir ki, İkinci Qarabağ müharibəsindən sonra Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan və Türkiyə münasibətlərini daha da yüksək səviyyəyə qaldırdı. Əgər bütün qonşular Türkiyə ilə Azərbaycan kimi münasibətlər qursaydılar, o zaman dünyada heç bir savaş, heç bir müharibə olmazdı.

Digər bir məqalədə vurğulanır ki, Azərbaycan bölgədə sülhün tərəfdarıdır.

“Biz strateji nöqteyi-nəzərdən gələcəyə barış prizmasından yanaşırıq. Çünki mən istəyirəm ki, bir daha müharibə olmasın. Hər halda biz müharibə başlamayacağıq, əgər Ermənistan tərəfdə revanşist meyillər baş qaldırmasa. Əgər görsək ki, Ermənistanda bizə qarşı hər hansı bir təhdid yaranır, biz o təhdidi məhv etməliyik. Bu, bizim legitim hüququmuzdur. Ancaq bu təhdid olmasa, bizim başqa fikrimiz yoxdur. Qarabağda 25 min erməni yaşayır, onlar da bu işlərdə iştirak edə bilərlər - həm inşaat işlərində, həm də bərpa işlərində. Eyni zamanda, gələcəkdə biz onların yaşadıqları yerlərdə, kəndlərdə onlar üçün şərait yaradırıq”, - deyə məqalədə Azərbaycan Prezidentinin fikirləri yer alıb.

## Rusiya XİN: “Moskva Ermənistan-Azərbaycan sərhədində yaşanan problemlərin həlli ilə bağlı təklifləri tərəflərə təqdim edib”



Rusiya XİN Ermənistan-Azərbaycan sərhədinin bəzi hissələrində insident problemlərinin dayanıqlı və uzunmüddətli həllini Ermənistan və Azərbaycan arasında dövlət sərhədlərinin delimitasiyası üzrə komissiyanın yaradılmasında, daha sonra bütün sərhəd boyu demarkasiya aparılmasında görür. AZƏRTAC xəbər verir ki, bu barədə Moskvada brifinqdə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin İnformasiya və mətbuat departamenti direktorunun müavini Aleksey Zaytsev bildirib.

“Moskva müvafiq danışıqlar prosesinin başlanmasının təmin edilməsi üzrə təklifləri formalaşdırıb, Yerevana və Bakıya verib. Tərəfdaşların reaksiyasını gözləyirik”, - deyə diplomat vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşünün mümkünlüyü barədə sualı cavablandıran A.Zaytsev qeyd edib ki, ATƏT-in Minsk qrupu tərəfindən yeni danışıqların təşkili ciddi hazırlıq tələb edir.

“Rusiya həmişə bunu əsas götürüb ki, müntəzəm dialoq, xüsusən yüksək və ali səviyyədə dialoq problemli məsələlərin həlli üçün qarşılıqlı anlaşmanın əldə olunmasına və konstruktiv mühitin dəstəklənməsinə kömək edir. Məhz Rusiya Prezidentinin Azərbaycan və Ermənistan liderləri ilə müntəzəm əlaqələri sayəsində Qarabağda qan tökülməsinin qarşısını alan və regionda dinc həyatın əsasını qoyan 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatı imzalamaq mümkün oldu”, - deyə RF XİN rəsmisi qeyd edib.

### Aleksandr Lukaşenko: Azərbaycan Belarusu ardıcıl və təmənnasız dəstəkləyən qardaş ölkədir

**Azərbaycan Belarusu ardıcıl və təmənnasız dəstəkləyən qardaş ölkə və strateji tərəfdaşımızdır.**



Bu fikri sentyabrın 30-da Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Ülvi Baxşəliyevin etimadnaməsini qəbul edərkən söyləyib.

Belarus Prezidenti etimad və etibara görə ölkəsi adından və şəxsən öz adından bütün Azərbaycan xalqına, dostu, Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

## Ceyhun Bayramov: “Ermənistanın delimitasiya prosesini ləngitməsi lazımsız gərginliyə səbəb olur”

**Əlbəttə, otuz il ərzində Azərbaycan ilə Ermənistan arasında sərhədlərin müəyyən edilməməsi, delimitasiya və demarkasiya prosesinin həyata keçirilməməsi normal hal hesab edilə bilməz. Bunun əsas və yeganə səbəbi torpaqlarımızın uzun illər ərzində işğal altında olmasıdır.**



AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanek ilə birgə keçirdiyi mətbuat konfransında deyib.

Nazir bildirib ki, Azərbaycan Respublikası beynəlxalq hüquq normaları əsasında öz ərazi bütövlüyünü bərpa etdi və Ermənistan ilə Azərbaycan arasında olan 400 kilometrə yaxın sərhədi də nəzarətə götürdü. “Hazırda bu məsələ delimitasiya prosesi vasitəsilə həyata keçirilməlidir. Bildiyiniz kimi, Azərbaycan bu məsələ ilə bağlı bir neçə dəfə təşəbbüslə çıxış edib. Ancaq Ermənistan tərəfi prosesi ləngidir və bu da lazımsız gərginliyə səbəb olur”, - deyə nazir vurğulayıb.

Ceyhun Bayramov bildirib ki, Azərbaycan beynəlxalq hüquq normaları prizmasından çıxış edir, bir-birinin ərazi bütövlüyünə, suverenliyinə hörmət, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərini rəhbər tutur. Hesab edir ki, Azərbaycan ilə Ermənistan arasında sabit və inkişafa yönəlmiş mühitin formalaşması üçün bu yanaşmanın alternativi yoxdur.

## “Azərbaycanın qələbəsi son 30 ildə Avropada ən böyük hadisə oldu”



**Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ərazilərinin azad olunmasını təmin edən, Cənubi Qafqazın çiçəklənən gələcəyinə və Avropanın daha yüksək təhlükəsizliyinə yol açan uğurlu müdafiə hərbi əməliyyatlarına başladı. Amerikalı ekspert Piter Teysin bu fikirlərini SİA Trendə istisnadən bildirir. O bildirib ki, prezident İlham Əliyev yüksək liderlik keyfiyyətləri, idarəetmə bacarıqları, qətiyyət və rəşadət nümayiş etdirib və BMT Təhlükəsizlik Şurasının qətnamələrini və prinsiplərini müdafiə edib:**

“Azərbaycanın şanlı Silahlı Qüvvələri ölkə tarixi ərzində ən vacib geosiyasi məqsədinə nail oldu. 9 noyabr 1989-cu ildı Berlin divarının çökməsi və Almaniyanın birləşməsindən sonra Avropa tarixində bu miqyasda iri hərbi-siyasi hadisə baş verməmişdi”.

Ekspert qeyd edib ki, Azərbaycan ordusu İkinci Qarabağ müharibəsində son 30 ildə Avrasiyada görünməmiş qələbə qazandı: “Xüsusən, Azərbaycanın Xüsusi təyinatlı qüvvələrinin yüksək hazırlıq səviyyəsi döyüş əməliyyatlarını dəqiqliklə və qətiyyətlə keçirməyə imkan verib. Azərbaycan ordusu döyüş taktikası düşməni çaşdırdı. Əks-həmlə tədbirləri isə elə həyata keçirilirdi ki, Ermənistanın faşist silahlı qüvvələri onu çözə bilməsin. Hərbi rəhbərliyin dayağı həm də keyfiyyətli təhsildir. Azərbaycanın tanınmış hərbçiləri öz biliklərini müasir hərbi ədəbiyyatın öyrənilməsi ilə tamamlayıb. Azərbaycan hökuməti ölkənin hərbi əməliyyatlar keçirmək bacarığını və Bakının strateji hədəflərinə yaranan təhdidlərə reaksiya vermək bacarığını artırmaq işinə sadiqdir”.

P.Teys vurğulayıb ki, bu gün Azərbaycanın azad edilmiş ərazilərində reallaşdırılan irimiqyaslı iqtisadi layihələr, o cümlədən Füzuli beynəlxalq hava limanı hökumətin bu regionların inkişafına sadiqliyini nümayiş etdirir: “Bu gün azad edilmiş ərazilərdə müşahidə olunan iqtisadi inkişaf heyrətləndirir”

## Yakub Kulhaneki: Azərbaycan Avropa İttifaqı, eyni zamanda, Çex Respublikası üçün önəmli tərəfdaşdır



**Mənimlə birlikdə bir sıra Çex şirkətlərinin nümayəndələri Azərbaycanda səfərdədirlər. Bu şirkətlər Azərbaycanda yeni tərəfdaşlar qazanmağa qadirdirlər. İşğaldan azad olunmuş ərazilərdə tikinti, quruculuq, ərazilərin bərpası zamanı çirklənmiş sulardan təmizlənməsi və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar var. Bu sözləri Çex Respublikasının xarici işlər naziri Yakub Kulhaneki azərbaycanlı həmkarı Ceyhun Bayramovla keçirdiyi brifinqdə deyib.**

Azərbaycan-Çexiya əməkdaşlığının həm də enerji sahəsinin inkişafından asılı olduğunu deyən nazir bildirib: “Biz energetika sahəsinin inkişafına böyük diqqət və kifayət qədər maraq göstəririk”.

Nazir, həmçinin qeyd edib ki, Azərbaycan Avropa İttifaqı, eyni zamanda, Çexiya üçün önəmli tərəfdaşdır. Regionda baş verən son proseslərə toxunan Yakub Kulhaneki ümid etdiyini bildirib ki, Ermənistan ilə Azərbaycan arasında sülhə nail olunacaq. Çünki bu ölkələr arasında əldə olunacaq sülh regionda təhlükəsizliyin təmin olunmasına töhfə verəcək”.

# Milli Məclisin 2021-ci ilin payız sessiyasında ilk iclası keçirilib



**Sentyabrın 30-da Milli Məclisin 2021-ci ilin payız sessiyasında ilk plenar iclası keçirilib. Milli Məclisin sədri Sahibə Qafarova payız sessiyasını açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

İclasda S.Qafarova deputatları payız sessiyasının başlaması münasibətilə təbrik edib və sessiyada fəaliyyətlərinin səmərəli olmasını arzulayıb.

Sonra Milli Məclisin sədri bildirib ki, sentyabrın 27-də ölkəmizdə Anım Günü qeyd edilib. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq Bakı şəhərində keçirilmiş yürüşdə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyeva iştirak ediblər. Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyulub.

Dövlətimizin başçısı xalqa müraciətində ədalət, ləyaqət və milli qürur uğrunda 44 günlük Vətən müharibəsində böyük Qələbəmizi şərtləndirən amillər haqqında geniş məlumat verdi, 30 il ərzində torpaqlarımızı işğal altında saxlamış, həm işğal, həm də müharibə dövründə dinc əhaliyə qarşı qanlı cinayətlər törətmiş erməni faşizminin iç üzünü açıb göstərdi, bundan sonra Azərbaycan dövlətinin qalib dövlət kimi, Azərbaycan xalqının qalib xalq kimi əbədi yaşayacağını bəyan etdi.

Prezident İlham Əliyevin bu sözləri hər birimizin ürəyindən xəbər verirdi. O, dedi: "...əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

...Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Milli Məclisin sədri Sahibə Qafarova şəxsən öz adından və deputatların adından bu möhtəşəm Qələbəni xalqımıza bəxş etmiş Müzəffər Sərkərdə İlham Əliyevə, Azərbaycanın cəsur əsgər və zabitlərinə bir daha sonsuz minnətdarlığını ifadə edib. O, qazilərimizə möhkəm cansağlığı, döyüşlərdə xəsarət almış hərbçilərimizə şəfa diləyib. S.Qafarova təəssüflə qeyd edib ki, müharibədə itkilərimiz də olub.

Deputatlar Birinci və İkinci Qarabağ müharibələrində, digər döyüş əməliyyatlarında Vətən və xalq yolunda canlarından keçmiş şəhidlərimizin xatirəsini birdəqiqəlik sükutla yad ediblər. Sahibə Qafarova Allahdan bütün şəhidlərimizə rəhmət diləyib.

Daha sonra parlamentin sədri diqqətə çatdırıb ki, o, bu ilin yaz və növbədənkənar sessiyalarının yekunları barədə deputatlara məlumat verib. S.Qafarova qısaca olaraq qeyd edib ki, 3 sessiyada 22 iclas keçirilib, 120 qanun və qərar qəbul edilib. Ölkənin ictimai-siyasi və iqtisadi həyatının mühüm məsələlərinə münasibət bildirilib.

Parlamentin sədri deyib ki, Milli Məclisin beynəlxalq fəaliyyəti sessiyadan sonrakı dövrdə də uğurla davam etdirilib. Bir sıra ölkələrə səfərlər həyata keçirilmiş, xarici ölkələrin təmsilçiləri Milli Məclisdə qəbul ediliblər.

Nümayəndə heyətlərimiz üzv olduğumuz beynəlxalq təşkilatların fəaliyyətində yaxından iştirak ediblər. Milli Məclisin beynəlxalq əlaqələri ilə bağlı ən mühüm hadisələrdən biri iyul ayının sonlarında Türkiyə Böyük Millət Məclisinin Sədri cənab Mustafa Şentopun və Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərin Azərbaycana səfəri və iyulun 27-də Bakıda Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşünün keçirilməsi olub.

Üç dost və qardaş ölkənin yeni üçtərəfli parlament əməkdaşlığı formatının əsası qoyulub. Parlament sədrlərinin birinci görüşünün yekununda Bakı Bəyannaməsi qəbul edilib. Sahibə Qafarova deyib ki, parlament sədrlərinin işğaldan azad edilmiş Şuşa və Füzuli şəhərlərini birgə ziyarət etməsi üç qardaş ölkənin qanunvericilik orqanları arasında münasibətlərin ən yüksək səviyyəsini ifadə edirdi.

O, Azərbaycan, Türkiyə və Pakistan arasında strateji tərəfdaşlıq və müttəfiqliyin qarşıdakı illərdə daha da dərinləşəcəyinə və xalqlarımızın milli maraqlarına xidmət edəcəyinə əminliyini söyləyib. Sonra plenar iclasın gündəliyi təsdiq olunub və gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəliyə 15 məsələ daxil edilib. Gündəliyin ilk iki məsələsi Milli Məclisin qərar layihələridir. Spiker qeyd edib ki, hər sessiyanın əvvəlində Milli Məclisin qanunvericilik işləri planı qəbul olunur və Milli Məclis öz fəaliyyətini həmin plan əsasında qurur. Sədr diqqətə çatdırıb ki, gündəliyin birinci məsələsi Milli Məclisin 2021-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqındadır. Plan 12 bənddən ibarətdir.

Payız sessiyasının qanunvericilik işləri planı ilə bağlı aparılan müzakirələrdə komitə sədrləri Zahid Oruc, Musa Quliyev, Əhliman Əmiraslanov, Qənirə Paşayeva, Ziyafət Əsgərov, deputatlardan Musa Qasımlı, Azər Badamov, Fazil Mustafa, Əli Məsimli, Aydın Mirzəzadə, Razi Nurullayev, Sahib Alıyev, Jalə Əliyeva, Hikmət Məmmədov çıxış ediblər. Millət vəkilləri qanunvericilik işləri planını məqbul hesab ediblər, bir sıra təkliflər səsləndiriblər.

Deputatlar, eyni zamanda, Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin bu günlərdə Qazaxıstan Respublikasına işgüzar və rəsmi səfəri barədə fikirlərini açıqlayıblar. Səfər zamanı keçirilən görüşləri, aparılan danışıqları yüksək dəyərləndiriblər. Həmin görüşlərdə spikerin Xocalı soyqırımının qarşıdan gələn 30 illiyi ilə bağlı etdiyi çağırışlar müsbət qarşılanıb.

Çıxışlarda 27 sentyabr - Anım Günündə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda keçirilən yürüşdə Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın iştirakı xüsusi qeyd edilib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər tarixi ədalətin bərpası kimi dəyərləndirilib. Ölkə başçısı İlham Əliyevin Azərbaycanın şanlı qələbəsindəki rolu və xidmətləri yüksək qiymətləndirilib. Müzakirələrin yekununda Milli Məclisin 2021-ci il payız sessiyasının qanunvericilik işləri planı səsə qoyularaq qəbul edilib.

Azərbaycan xalqının Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı dinlənildikdən sonra səsə qoyularaq qəbul edilib.

Fasilədən sonra gündəlikdəki digər məsələlərə baxılıb. Milli Məclisin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin üçüncü məsələsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya qanununun layihəsidir. O qeyd edib ki, Konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur. "Biz bu qanun layihəsinə yaz sessiyasının birinci iclasında birinci səsvermədə münasibət bildirmişik. İndi isə onu ikinci səsvermədə qəbul etməliyik", - deyə o əlavə edib.

Qanun layihəsini təqdim edən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, bu, çox əhəmiyyətli bir qanun layihəsidir. Qanunvericilik təşəbbüsü hüququ qaydasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilən qanun layihəsi normayaratma fəaliyyətində kompleks və vahid yanaşma, sabitlik, sistemliliyin təmin edilməsi və bu sahədə səmərəliliyin artırılması məqsədilə hazırlanıb. Dəyişikliklər normayaratma fəaliyyətinin təkmilləşdirilməsini nəzərdə tutur. Qanun layihəsi ikinci səsvermədən keçərək qəbul edilib.

Sonra Milli Məclisin sədri bildirib ki, gündəliyin dördüncü və beşinci məsələləri beynəlxalq sazişlərdir. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununun tələbinə əsasən bu iki qanun layihəsi bir oxunuşda baxılıb qəbul ediləcək. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu arasında məktublar mübadiləsi formasında bağlanmış Sazişin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə məlumat verib.

Qeyd olunan məsələyə parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxıldığına görə, deputat Azər Kərimli komitənin rəyini bildirib. Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Sonra Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini təqdim edib.

Bildirilib ki, Azərbaycan və Türkiyə strateji müttəfiqdirlər. İki ölkə arasında ən yüksək səviyyədə möhkəm münasibətlər qurulub. Bu gün Azərbaycan və Türk əsgərləri birgə təlimlər keçirlər. Qeyd edilib ki, iki ölkə arasında hərbi əməkdaşlığın inkişafı regionda sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar olması baxımından çox əhəmiyyətlidir. Adı çəkilən Anlaşma Memorandumunun təsdiq edilməsi bu sahədə münasibətlərimizin dərinləşməsi üçün atılan mühüm addımdır. Sənəd Azərbaycanın milli maraqlarına tamamilə cavab verir.

Sonra deputat Azər Kərimli qanun layihəsi barədə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəyini diqqətə çatdırıb.

Deputatlar Fəzail Ağamalı, Sahib Alıyev, Elman Nəsirov Azərbaycanla Türkiyə xüsusi təyinatlılarının təliminə dair Anlaşma Memorandumu barədə fikirlərini açıqlayıblar. Qanun layihəsi səsə qoyularaq qəbul edilib. Milli Məclisin sədri bildirib ki, gündəliyin növbəti 5 məsələsi dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır və bir oxunuşda baxılıb, qəbul ediləcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim edib.

Eyni mahiyyətə malik qanun layihələrinə əsasən, Azərbaycan Prezidentinin 2015-ci il 3 iyun tarixli 1255 nömrəli Sərəncamına əsasən yaradılmış Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye parkının rezidenti tərəfindən İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün malların idxalı 2016-cı il mayın 1-dən 5 il müddətinə ƏDV tutulmasından və gömrük rüsumlarından azad edilib. Həmin müddətin cari ildə bitməsini nəzərə alaraq və bu sahədə fəaliyyətin dəstəklənməsinin davam etdirilməsi məqsədilə ƏDV-dən və gömrük rüsumlarından azadolmanın daha beş il müddətinə uzadılması təklif olunur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib. Sonra komitə sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Diqqətə çatdırılıb ki, vergi orqanları tərəfindən tətbiq edilən sanksiyalardan və cərimələrdən İqtisadiyyat Nazirliyinin hesabına daxil olan vəsaitin bir hissəsinin dövlət və ictimai əhəmiyyətli məqsədlərlə əlaqədar, o cümlədən YAŞAT Fonduna köçürülməsi üçün Vergi Məcəlləsinə dəyişiklik nəzərdə tutulur. Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

İclasda Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsindən bəhs edib. Bildirilib ki, nəzərdə tutulan dəyişiklik "Məşğulluq haqqında" qanunda dəyişiklik edilməsi barədə 1 fevral 2021-ci il tarixli qanuna uyğunlaşdırılması məqsədilə hazırlanıb. Həmin qanunda sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dairəsinə şəhid ailəsinin üzvləri də aid edilmiş, peşə hazırlığının, işsiz şəxslərin özünüməşğulluğunun və sosial iş yerlərinin təşkili zamanı onlara da digər həssas qruplarla birlikdə üstünlük verilməsi təsbit edilir.

Parlamentin komitə sədrləri Hicran Hüseynova, Qənirə Paşayeva, deputatlardan Fazil Mustafa, Əli Məsimli, Fəzail Ağamalı, Etibar Əliyev, Səttar Möhbalıyev, İlham Məmmədov, Şahin İsmayılov, Vahid Əhmədov qanun layihələri barədə öz qeydlərini diqqətə çatdırıblar. Komitə sədri Musa Quliyev müzakirələrdə səsləndirilən fikirlərə münasibət bildirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

İclasda "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin üçüncü oxunuşda təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib ki, dəyişikliklər müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması məqsədilə hazırlanıb və onların məhkəməyə verilən iddia ərizələri üzrə və mənzilin alqı-satqısı zamanı dövlət rüsumu ödəməkdən azad edilməsini nəzərdə tutur.

Komitə sədri Musa Quliyev və deputat Fazil Mustafa məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin birinci oxunuşda diqqətə çatdıran komitə sədri Tahir Mirkişili bildirib ki, təklif olunan dəyişiklik daxildə emal xüsusi gömrük proseduru altında malların yerləşdirilməsinə görə təminatın məcburi olaraq təqdim edilməsi tələbinin ləğv edilməsini, həmin prosedurun gömrük təminatının verilməsinin fakültativ halı kimi müəyyən olunmasını nəzərdə tutur. Bununla əlaqədar, məcburi olaraq təminatın verilməsi ilə bağlı tələbi nəzərdə tutan 167.3.2-ci maddədən daxildə emal xüsusi gömrük proseduru çıxarılır və malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsinə təminat verilməsinin fakültativ (məcburi olmayan) halı kimi müəyyən edilməsinə dair yeni 167.3-1-ci maddə əlavə edilir. Qanun layihəsi birinci oxunuşda qəbul edilib. Milli Məclisin payız sessiyasında ilk plenar iclası başa çatıb.

## Vüqar Rəhimzadə: "Ermənistan birmənalı olaraq sülh müqaviləsini imzalamalıdır"

"Postmünaqişə dövrünün əsas çağırışlarından biri Azərbaycan tərəfinin təklif etdiyi sülh müqaviləsinin işğalçı Ermənistan tərəfindən qəbul olunaraq bölgədə daimi sülhün, təhlükəsizliyin bərqərar olması, yeni əməkdaşlıq formatlarının reallığa çevrilməsi istiqamətində addımların atılmasıdır. Bu isə öz növbəsində dünyanın aparıcı dövlətlərindən, nüfuzlu beynəlxalq təşkilatlardan qətiyyətli addımlar atmağı, Ermənistana sülh təklifini qəbul etdirməyi bir tələb kimi qarşıya qoyur. Yenə də Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində ədalətin bərpası ilə tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə 1992-ci ildən yaradılan, amma hələ də vasitəçilik missiyalarının nədən ibarət olduğunu dərk etmək istəməyən ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətlərində ciddi dönüş yaratmağa bir çağırış var. Reallıq budur ki, əgər hər hansı bir ölkə vasitəçi rolunu üzərinə götürürsə, bu ölkə neytral olmalıdır. Əgər o, neytral deyilsə, vasitəçi ola bilməz. Təəssüflər olsun ki, ATƏT-in Minsk qrupunun həmsədrləri nəinki işğal dövründə, eyni zamanda, Vətən müharibəsi və postmünaqişə vaxtlarında da Ermənistana dəstəklərini açıq-aşkar büruzə verirlər. Ölkə Prezidenti İlham Əliyev İkinci Qarabağ savaşının davam etdiyi 44 gündə, eyni zamanda, hazırda xarici mətbuata müsahibələrində yüksək intellekt, diplomatik məharət nümayiş etdirərək reallıqları əsaslı şəkildə diqqətə çatdırır. Dövlətimizin başçısı Müzəffər Ali Baş Komandan kimi həm hərb meydanında öz sözünü dedi, həm də siyasi lider kimi informasiya cəbhəsində ölkəmizin mövqeyini qətiyyətlə müdafiə edərək haqq səsimizi bütün dünyaya çatdırdı və bu gün də bu siyasət uğurla davam etdirilməkdədir". Bunu Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə SİA-ya açıqlamasında da bildirib.



V.Rəhimzadə vurğulayıb ki, dövlət başçısı İlham Əliyevin beynəlxalq KİV-lərə, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin mətbu orqanlarına müsahibələri həqiqətlərin bir daha həmin ölkələrin auditoriyasına çatdırılmasına imkanlar yaradır, işğalçı dövlətə bu günədək verilən dəstəklərin əsl mahiyyətinə işıq salır: "Müharibə dövründə də Fransa ikili mövqeyini qabarıq şəkildə büruzə verdi. Belə ki, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətləri əks etdirdiyinə görə Fransanın TF1 telekanalının bu ölkədə yaşayan ermənilərin ciddi təzyiq və təhdidinə məruz qalması nə dərəcədə demokratiyanın tələblərinə, beynəlxalq hüquq normalarına uyğun ola bilərdi? İkinci Qarabağ müharibəsinin davam etdiyi dövrdə BMT Təhlükəsizlik Şurasında keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı baş tutan müzakirələrdə Qoşulmama Hərəkatının, eyni zamanda, hazırda Təhlükəsizlik Şurasının üzvü olan ölkələr - İndoneziya, Tunis, Niger, Dominikan Respublikası, Vyetnam, Cənubi Afrika Respublikası, Sent-Vinsent və Qrenadin təklif edilən sənəd layihəsinə Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş qətnamələrinə istinadın daxil edilməsinə dair israrlı mövqe nümayiş etdirdilər. Ən təəccüblüsü o idi ki, bu qətnamələrin həmin sənədə daxil edilməsini istəməyənlər adlarını vasitəçi qoyan ABŞ, Rusiya və Fransa idi. Lakin ciddi isrardan sonra ATƏT-in Minsk qrupunun həmsədrləri bunu qəbul etməyə məcbur oldular".

YAP Xətai rayon təşkilatının sədri diqqəti Prezident İlham Əliyevin sentyabrın 28-də Fransanın "France-24" televiziya kanalına müsahibəsində səsləndirdiyi bəyanatlara, ATƏT-in Minsk qrupunun həmsədrlərindən hazırkı gözləntilərimizlə bağlı fikirlərinə, dövlət başçısının jurnalistin "Siz Fransanı dürüst vasitəçi hesab edirsiniz" sualına cavabına yönəldib: "Dövlət başçısının fikirlərində bütün hallarda dünya güclərindən ədalətə, beynəlxalq hüquqa əsaslanmaları xüsusi yer alır. "Fransa Minsk qrupunun həmsədri olmasaydı, əlbəttə, onun istənilən ölkə ilə münasibət qurması öz işi olardı", söyləyən dövlət başçısı Fransa ilə Ermənistanın tarixi əlaqələrindən, Fransada fəal erməni icmasının olmasından, onların qərar qəbul edən şəxslərə mümkün təsirindən xəbərsiz olmadığımızı xüsusi qeyd edib. Bu məqam bir daha diqqətə çatdırılıb ki, müharibə zamanı Fransa özünü dürüst vasitəçi kimi aparmadı. Çünki yenə Ermənistana dəstək özünü qabarıq şəkildə büruzə verdi. Fransa bitərəf deyil, birtərəfli mövqeyi ilə açıq-aşkar erməni sevgisini nümayiş etdirdi. Azərbaycan bununla bağlı öz narahatlığını ifadə etmişdir".

Vüqar Rəhimzadə Azərbaycanın balanslaşdırılmış xarici siyasət yürütdüyünü önə çəkərək bildirib ki, dövlət başçısının müsahibəsində vurğuladığı kimi, çox realist yanaşmanın tətbiq edilməsi vaxtı yetişib. Ən əsası Azərbaycan artıq səhifəni çevirir: "Artıq keçmişlə yaşamaq deyil, gələcəyə baxmaq bugünümüzün əsas çağırışıdır. Hazırda gündəmdə olan sülh təklifinin reallığa çevrilməsində Fransa ilə yanaşı, digər həmsədrlərin də səy göstərmələri tələb edilir. Düşünürük ki, dövlət başçısı İlham Əliyevin Fransanın öz telekanalı vasitəsilə fransız auditoriyasına çatdırdığı mesajlar növbəti mərhələlərdə müsbət nəticəsini verəcək. Burada əsas məsələ Minsk qrupunun həmsədrlərinin fəaliyyətlərində dönüş yaratmaları, 30 illik işğal dövründə ədaləti arxa plana keçirib maraqları öndə saxlamalarına son qoymalarıdır".

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, ölkə Prezidenti İlham Əliyev diplomatik şəkildə, təmkinlə jurnalistin tarixi bilmədən, Ermənistana olan sevgisindən irəli gələn suallarını cavablandıraraq bir daha fransız auditoriyasına həqiqətləri çatdırdı: "Bəyanatlarda ərazi iddiası deyil, tarixi həqiqətlər öz əksini tapır. Dövlət başçısının müsahibədə ifadə etdiyi hər bir cümlə özündə bir tarixi, həqiqəti əks etdirir. 44 günlük İkinci Qarabağ savaşında tarixi Qələbəmiz sübut etdi ki, Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur. Dünya gücləri münaqişənin həll olunmadığını, status məsələsini tez-tez gündəmə gətirsələr də bunun vəziyyəti gərginləşdirmək məqsədi güddüyü aydındır. Amma bütün cəhdlər, sərsəm bəyanatlar reallığı inkar etmək gücündə deyil. Reallıq isə ondan ibarətdir ki, münaqişə tarixə qovuşub. Ermənistan birmənalı olaraq sülh müqaviləsi barədə düşünməlidir. Əks təqdirdə onların bu əsassız iddialarına adekvat münasibət göstəriləcək".

## "Abituriyent Prezident təqaüdünü almaq üçün ciddi hazırlaşmalıdır"



**EKSPERTLƏR MÜNASİBƏT BİLDİRDİ**

"Dünən cənab Prezident, Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi barədə müvafiq sərəncam imzalayıb. Sərəncam 2020-2021-ci tədris ilində yüksək nailiyyətlər əldə edərək ali təhsil müəssisələrinə daxil olmuş tələbələrin 102 nəfərinə Prezident təqaüdü təyin edib. Hesab edirəm ki, bu bütövlükdə ölkə başçısının təhsilə olan qayğısının növbəti təzahürüdür". Bu sözləri SİA-ya açıqlamasında Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov deyib. Onun sözlərinə görə, Azərbaycan Respublikasında yüksək nəticələr əldə etmiş tələbələrə bu təqaüdün verilməsi onların gələcək həyatında olduqca böyük rol oynayacaq və onların daha savadlı, bilikli olmaları istiqamətində yeni stimul verəcək: "Prezident təqaüdü xeyli bir məbləğdir. Yəni, az məbləğ deyil. Eyni zamanda, məbləğdən əlavə bunun bir yükü var, hansı ki, o yük ondan ibarətdir ki, ölkə başçısı məhz ölkəmizdə savadlı gənclərin təhsillərini stimullaşdırmaq, onlara əlavə motivasiya vermək, onların daha yaxşı oxumaq, daha bilikli olmaq uğrunda mübarizəsini şərtləndirir. Əlbəttə ki, 102 nəfər tələbəyə Prezident təqaüdünün verilməsi gələcəkdə də bu istiqamətdə yüksək nəticələr uğrunda bizim gənclərimizin daha da üzərlərində çox çalışmaları, bilikli olmaları istiqamətində rəqabət mövqeyi artıracaq. Çünki, bugünün şagirdi gələcəyin məzunudur, daha sonra tələbədir".

**İlqar Orucov sözlərinə belə davam edib:** "Əlbəttə ki, bugünkü şagird görürsə ki, ölkə başçısı məhz yüksək nəticə göstərərək ali təhsil müəssisələrinə daxil olmuş gənclərə Prezident təqaüdü verir, həm də burada Prezident sözünün olması bu mükafatın maddidən əlavə mənəvi yükünü xeyli artırır".



Mən əminəm ki, bizim tələbələrə ölkə başçımızın uzun illərdən bəri təyin etdiyi o Prezident təqaüdünün bu il də təyin olunması bizim gənclərimizə, təhsilimizə savadlı, bilikli gənclərimizə dövlətin növbəti qayğısının təzahürüdür. Ümumiyyətlə, bu istiqamətdə ölkəmizdə xeyli işlər görülüb. Bütövlükdə tələbələrin təhsil almasında məhz dövlətin rolunun gücləndirilməsi xüsusilə, ödənişsiz təhsil alan tələbələrin ümumi sayının təxminən 50 faizə qaldırılması istiqamətində görülmüş addımlar təhsilin əlçatanlığını təmin etməkdir.

Eyni zamanda, bilirsiniz ki, yayda cənab Prezidentin fərmanı ilə Azərbaycan Respublikasının Tələbə Kredit Fondu yaradıldı. Bu da təhsil uğrunda rəqabət mühitini formalaşdırmaq, eyni zamanda, aztəminatlı ailələrdən olan tələbələrin qayğısına qalmaq, onları dövlət himayəsinə götürmək istiqamətində çox böyük addımlar idi.

Əlbəttə ki, Azərbaycan Respublikasında siyasi rəhbərliyin həyata keçirdiyi siyasətin kökündə o durur ki, savadlı, dünyanın əmək bazarı ilə ayaqlaşa biləcək gənclər yetişsin və onların potensialından gələcəkdə Azərbaycan dövləti, Azərbaycan dövlətinin inkişafı naminə hərtərəfli istifadə olunsun. Bu istiqamətdə dövlətin bu kimi humanist və nəcib fəaliyyətini hər zaman görmüşük. Cənab Prezidentin gənclərə qayğısını biz hər zaman görmüşük, düşünürəm ki, məhz bu sərəncam da 2020-2021-ci təhsil ilində ən yüksək nəticələrlə ali təhsil müəssisələrinə qəbul olmuş gənclərə Prezidentin himayəsinin, qayğısının göstəricisidir".



**Məsələ ilə bağlı təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi də öz fikirlərini qeyd edib:** "Dövlət başçısı tərəfindən yüksək bal toplayan 102 nəfər tələbənin Prezident təqaüdünə layiq görülməsi ilə bağlı müvafiq sərəncam verildi. Yüksək bal toplayan 25 nəfər tələbəyə Prezident təqaüdü təyin olunub. Bu, yalnız yüksək bal toplayan tələbələri əhatə edir və yalnız hər qrupdan 25 nəfərə şamil olunur".

Ölkə üzrə Prezident təqaüdünün verilməsi mütərəqqi addımdır. Məsələn, elə tələbələr var ki, onlar həm Prezident təqaüdü, həm universitetin verdiyi təqaüdü, həm də müəyyən şirkətlər tərəfindən təqdim olunan təqaüdləri alır və bu da üst-üstə 400-500 manat civarı edir. Düşünürəm ki, bu bir tələbə üçün olduqca öz gəlirlərini, çıxarlarını tənzimləmək üçün yaxşı bir rəqəmdir. Bu, tələbələrə stimul verir və hər bir abituriyent fikirləşir ki, onlar yüksək bal toplayıb Prezident tərəfindən təqaüdə layiq görülsünlər.

Müəyyən universitetlər Prezident təqaüdü alan tələbələrin sayını çıxarırlar, hesabatını paylaşırlar, bu da bir qədər universitetlərin də rəqabət aparmasına gətirib çıxarır ki, abituriyentlər ixtisaslaşma dövründə məhz həmin universitetlərə üstünlük verməsini istəyirlər.

Prezident təqaüdünün verilməsi 2001-ci ildən Heydər Əliyev tərəfindən təyin olunub. Yəni, məhz Heydər Əliyevin sərəncamı əsasında bu proses başlanıb və 2001-ci ildən, 20 il vaxt ərzində demək olar ki, yüzlərlə gənc bu prosesdən yararlanıb. Düşünürəm bu da tələbəliyə, təhsilə, gəncliyə yatırılmış uğurlu bir sərmayədir. Tələbələr bu prosesdən yararlana bilirlər. Halhazırda ölkəmizdə də Prezident təqaüdünün məbləği 210 manat üzərindədir və düşünürəm ki, hər bir abituriyent məhz Prezident təqaüdünü almaq üçün hazırlıq dövründə ciddi hazırlaşmalıdır".

*Ayşən Vəli*

# Açıq-saçıq geyinmək dəbdir, yoxsa necə?

**Modaya uyğun geyinmək, hər zaman baxımlı və şık görünmək biz qadınlar üçün ən vacib məsələlərdən biridir. Xüsusilə, şık olmaq dünyanın ən çətin işi kimi qəbul edilə bilər. Ancaq bir az diqqətlə öz üslubunuzu yarada bilərsiniz.**

ABŞ psixoloqu Cennifer Baumgartner izləyiciləri ilə bir qadının içində mövcud olan və gizli qalan ehtirasların geyindikləri paltarla ortaya çıxdığını açıqlayıb. İş yerində köynək düymələrini sonuna qədər bağlayan qadınlar, işəgötürənlərinə "qadınlığı vurğulamağın zəiflik əlaməti olduğu" mesajını verirlər. Kitabdakı başqa bir nümunə gənc və yaşlı qadınları müqayisə edir. Qısa ətəkdə çölə çıxan gənc qız insanların diqqətini çəkmək istədiyi halda, oxşar geyimdə bayıra çıxan yaşlı qadın yaşını gizlətməyə meyillidir. Baumgartner geyim və duyğu arasındakı əlaqəni belə ifadə edib: "Geydiyimiz şey daxili dünyamızda baş verən hər şeyi xarici dünyaya əks etdirən bir aynaya bənzəyir".



ABŞ-ın Minnesota Universitetinin apardığı bir araşdırmaya görə, qadınların, xüsusən də yumurtlama zamanı dekolte geyinməsinin səbəbi kişilər üçün deyil, digər qadınları qorxutmaqdır. Türkiyəli mütəxəssislər də oxşar nəticələrə malik araşdırmaların daha əvvəl aparıldığını və bu dəyişikliyin qadınlar üçün qaçılmaz olduğunu vurğulayırlar. Qadın xəstəlikləri üzrə mütəxəssislər yumurtlama dövründə qadın orqanizmində qadın hormonu estrogeninin 150, hətta 200 dəfə artdığını və bunun qadınlıq duyğularının artmasına səbəb olduğunu bildirir. Mütəxəssislər bu dövrdə qadının özünü göstərmək istəyinin artdığını söyləyir. Onlar geyinir, bəzənir və daha qadına xas davranır.

Heyvanlar geyinib bəzənə bilmədikləri üçün əks cinsi səslərlə heyran etməyə çalışırlar. Məsələn, Amazonlarda yaşayan qurbağalar əks cinsi heyran etmək üçün 3,5 kilometrə qədər gedən səslər çıxarır. Qadınlar isə bunu açıq-saçıq geyim vasitəsi ilə edirlər.

Məsələ ilə bağlı SİA olaraq araşdırma aparıb, psixoloq, stil məsləhətçisi və ekspertlərin fikrini öyrənib.

Psixoloq Mahuxanım Teymurova: "Geyimin sosial psixologiyası, bir şəxsin paltarının, öz davranışlarından başqa digərlərinin ona qarşı davranışlarına necə təsir etməsi ilə əlaqədardır. Gündəlik geyimlərində, sinə dekoltesi istifadə edən xanımlar, həyatlarında onları qoruyacaq güc axtarışı içində olurlar.

Əhali inkişaf etmiş dövlətlərdən nümunə alaraq açıq geyimlərə meyl edir. Bununla yanaşı geyim mağazalarında da satılan geyimlər əvvəlki illərə nisbətən daha açıq geyimlərdir. Bu da gənclərin düşüncəsində dəb olaraq formalaşır".

Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov da məsələyə öz münasibətini bildirib: "Geyim mədəniyyəti çoxşaxəli və mürəkkəb bir sivilizasiya faktorudur. Fikir versəniz, dünyanın hər yerində müxtəlif xalqlar, hətta etnik qruplar yaşadığı coğrafi əraziyə uyğun olaraq müxtəlif formada paltar və geyimlərdən istifadə edirlər. Sözsüz ki, geyimlər bir neçə yerə bölünür. Bu kişilər, qadınlar, uşaqlar, gənclər, yeniyetmələr, yaşlılar, cavanlar və ahıl adamlar eyni zamanda müxtəlif sahələrin insanları öz peşələrinə uyğun olaraq həm rəsmi formalar, polis, hərbçilər, yanğınsöndürənlər və sair, ola bilər, həm də müəyyən işarələri olan geyim nümunələrindən istifadə edirlər.

Əsasən, geyimlərin xüsusiyyəti ondan ibarətdir ki, insanın birinci növbədə sağlamlığını qorusun, ikinci növbədə ona hərəkət etməyə və yaxud hər hansı bir yerdə işləyirsə, işləməyə komfort yaratsın, üçüncü növbədə estetik bir zövq versin, dördüncü növbədə isə ətraf mühitin öldürücü şüalarından, yağışından, qarından, soyuğundan tutmuş təsirlərini minimuma endirsin.

Azərbaycanda, dünyanın hər yerində olduğu kimi lokallaşma yəni, milli etnik xüsusiyyətlərdən ibarət formaları özündə əks etdirən geyim nümunələrindən imtina hələ 20-ci əsrin əvvəllərindən etibarən başladı. Bilirsiniz ki, biz Sovetlər İttifaqının tərkibində idik və rus düşüncəsi, həyat tərzi geyimə də təsir etdi. Əslində, sovetin vaxtında yoxsulluğu aradan qaldırmaq üçün ümumi hər kəsin geyinə biləcəyi paltarlar var idi. Bu paltarlar estetik, görünüş baxımından zəif olsa da, keyfiyyət baxımından çox güclü idilər. Pambıqdan, kətandan, yun materiallardan hazırlanmış paltarlar və geyim formaları var idi. Ona görə də nə geyinirdilərsə, bu və ya digər dərəcədə Azərbaycana da təsir edirdi. Dünya dəyişəndən sonra SSRİ dağıldı və Azərbaycan sərhədlərini dünyaya açdı. Dünyada olan bütün geyim formaları Azərbaycana gəlməyə başladı. Əsasən də Azərbaycanda hal-hazırda daha çox türk və Rusiya dəbi ilə, bir qisim Avropa dəbi ilə və bir qisim də Şərq müsəlman, Ərəb və İran dəbi ilə geyinən insanlara rast gəlirik. Xanımlar və qadınlarımız əvvəllər geyimdə daha novator idilər və dünyada olan modanın böyük əksəriyyətini bizim xanımlarda görərdik. Amma, bəzən xanımlarımız ya maarifsizlikdir, ya da bilgisizlikdəndir, nədəndir bilmirəm kinolarda, televiziya verilişlərində, müxtəlif tədbirlərdə çəkilmiş reportajlarda gördüyü paltar nümunələrini o dəqiqə özündə görmək istəyirlər. Onlar da həddindən ziyadə açıq-saçıq paltarları geyinməyə meyl göstərirlər. Halbuki, dünyanın bir çox ölkələrində tutalım, yüngül əxlaqlı və yaxud yüngül düşüncəli, meşşan tipli qadınlar, qızlar daha çox açıq-saçıq paltarlara meyl edirlər ki, açıq bədən hissələri ilə kişiləri özlərinə cəlb etsinlər.

Onu da deyim ki, indi yalnız qadınlarla bağlı deyil bu problem, bu problem həm də translar, cinsi azlıqların nümayəndələri, geylər, lezbiyanlara da aiddir. Bədənini satan və bunu ar bilməyən və yaxud bundan əvvəl incəsənət xadimləri kino və şou biznes xadimləri daha çox açıq geyinirdilər. Onları başa düşmək olar. Yəni, rəqs edən, mahnı oxuyan, musiqiçi, müğənni, rəqqasə çadrada və yaxud qalın paltarda tamaşaçıların qarşısına çıxa bilməz. O məcburdur ki, ən azı bədənindəki istiliyi çıxartmaq üçün açıq geyinsin. Amma, onları kopya edən xanımlarımız, onların paltarlarının surətlərini gedib dərzilərdə sifariş verirlər və bu ümumi bir dəb halını alır. Yalnız Bakıda deyil, iri şəhərlər, hətta kəndlərdə də belə açıq-saçıq geyinib həm özünə, həm ətraf mühitə problemlər yaradan qadınlarımızın sayı durmadan artır. Xüsusən də son vaxtlar ətəyi çox qısa olan bəzən alt paltarı belə görsənən, oturanda ümumiyyətlə, bütün əzaları görsənən qızlar, gənc cavan gəlinləri, hətta orta yaşlı və yuxarı yaşlı qadınları görürük. Dar şalvarlar geyinən, üstü açıq, çoxlu kəsikləri olan paltar geyinən xanımların sayı get-gedə artır. Bu da həm ailədə, həm ətraf mühitdə, həm qohum-əqrəba arasında söz-söhbətə, konfliktə və qadın şiddətinə, ailədaxili şiddətlərə aparıb çıxarır.

Biz, çoxlu sayda qadınlarımızın bıçaqlanması, öldürülməsini görürük. Ona görə də qadınlarımız biraz ehtiyyatlı olmalıdırlar. Bizdə həm qadınlar, həm kişilər, həm oğlanlar, həm də qızlar çox böyük paltarla bağlı problemlər yaşayırlar.

Paltar yalnız ətraf mühitin yox, həm də insan daxilini və insandan gələn qoxuları gizlətmək üçündür. Bilirsiniz ki, insan orqanizmi daim işlək vəziyyətdədir və onun həm müxtəlif dəliklərində müəyyən qoxular, qazlar çıxa bilər. Bunları gizlətmək üçün ətraf mühitə yayılmaması üçün, sənin haqqında, insan haqqında mənfi rəy oyatmaması üçün paltarın bütöv olması, dəliklərin az olması çox önəmlidir. Düzdür, indi bu problem o qədər də əhəmiyyətli deyil. Çünki, bu keçmişdə daha çox idi.

Bilirsiniz ki, babalarımız, nənələrimiz aylarla çimə bilmirdilər, imkan olmurdu, xüsusən də qış aylarında və bu da onların bədənində ölü dərinin hissəciklərindən tutmuş müəyyən qoxuların gəlməsinə səbəb olurdu. Amma indi biz hər gün gündə 3 dəfə də duş qəbul edə bilirik və yaxud ayaqyolu komfortlu, tualet komfortu var deyə bu problemlər yoxdur. Amma istənilən halda yenə də biz ictimai yerlərə çıxırıq. Koronavirus hər tərəfi bürüyüb.

Geyim mədəniyyəti özündə həm gigiyenik, həm estetik, həm sosial, həm mədəni, həm də digər kulturoloji əhəmiyyət kəsb edən müəyyən işarələri birləşdirir. Tutalım, ev paltarı ilə çöl paltarı tamam fərqli olmalıdır. Çöldən gələn adam paltarlarını dəyişməlidir və evdə ev paltarını geyinməlidir. Bəzən biz həddindən artıq liberal, cins geyinmiş, şalvar geyinmiş qadınlarımızın toyda rəqs etdiyini görürük və onları kişilərdən fərqləndirə bilmirik. Yəni, bu insanlar o qədərmi savadsızdır, başa düşmürlər ki, ziyafət geyimi ilə toya getmək lazımdır, cins şalvarla yox. Ona görə də biraz belə şeylərə diqqət etməliyik.





Açıq saçıq geyimlərə gəldikdə isə bu bütün dünyada dəbdədir. Qeyd etdiyim bəzi məqamları çıxmaq şərtilə əlbəttə ki, biz açıq geyinən insanlara, xanımlara buna görə nə isə deyə bilmərik. Amma biz onları maarifləndirə bilərik. Kəskin ictimai qınaq uşaq bağçasında və yaxud məktəbdə dərs deyən müəllimə qarşı ola bilər ki, o, şagird və tələbələr qarşısında açıq-saçıq geyinməsin.

Bəzən biz baxırıq, fikirləşirik ki, katibədirsə, mütləq mini ətək geyinməlidir. Mən, universitetdə müəllim olanda o depressiv halları yaşamışam. Həddindən artıq qısa geyinmiş bir tələbə qız gəlirdi mənim kimi cavan müəllimin qarşısında ayaqları ayaqlarının üstünə qaldırıb oturardu və bu da təhsilin keyfiyyətinə mənfi təsir edirdi. Ona görə də belə şeylərdə biraz ehtiyatlı olsaq daha yaxşı olar".

Son olaraq geyim psixoloqu və stil üzrə mütəxəssis Rena Əliyevanın da fikirlərini öyrəndik. Rena xanım deyir ki, açıq-saçıq geyim dəb demək deyil: "Bu modadan kənar insanların şəxsi seçimi ilə bağlıdır. Çünki, bir marka yeni kolleksiya çıxardıqda orada həm qapalı, həm də açıq geyimlər olur. Yəni, insanlar seçimi özü edir.

Azərbaycanda son illərdə gedən ekstra avropalaşma hökm sürür. Açıq-saçıq geyimin dizgün istifadədə ziyanı olduğunu düşünmürəm. Lakin, yalnış istifadədə ziyanı olduğunu çox görürəm.

Modada geyim əxlaqı deyilən bir anlayış var. Yəni, hər sahədə bir əxlaq norması varsa, bu modada da olur. Lakin, bu o demək deyil ki, açıq geyinən əxlaqsızdır. Geyim əxlaqı var. Geyim əxlaqı odur ki, məsələn, ətək qısadırsa, sinə qapalı olmalıdır. Yəni, tarazlıq qorunmalıdır. Bizdə ən böyük səhv balansı qorumamaqdır. Açarkən hər yeri birdən açırlar. Bu zaman da ekstra vulqar və xoşagəlməyəcək cəlbedici bir görüntü olur. Bu da insanların psixologiyasına yalnış mesaj buraxır. Qısa geyinmək pis bir şey deyil, sadəcə düzgün istifadəyə diqqət etmək lazımdır".

***A.Vəli***

ARAŞDIRMA

# Dəbdəbəli qəbir daşlarında kimlər və niyə maraqlıdır?

## MARAQLI FAKTLAR

**Məzar daşının hansı materialdan və məzarın ölçüsündən necə istifadə edəcəyinizə qərar verərkən təyin etdiyiniz büdcə daxilində bir seçim etmək istəyirsiniz, ancaq mövzu ilə bağlı çox az məlumatınız var. İstifadə olunan daş növünə görə qəbir daşları növləri müxtəlifdir.**

Türbə tikintisində istifadə olunan daş modelləri 4 fərqli sinfə bölünür. Qiymət, dayanıqlıq, görünüş, keyfiyyət və detalları kimi fərqli xüsusiyyətlərə sahib olan bu məhsullara nəzər salaq.

### Mərmər Daşı

İstifadə sıxlığına görə 2 - ci yerdə olan və görünüşcə keyfiyyətli və gözəl formada olan təbii bir daşdır. Güc və davamlılığı çox yüksək səviyyədədir.

### Traverten məzar daşı

Ən çox üstünlük verilən və ən çox istifadə edilən məzar daşının Travertin olduğunu söyləyə bilərik. Türbələrin təxminən 60% -65% - i travertin modellərindən istifadə edilməklə hazırlanır.

Həm qiymət baxımından daha əlverişli, həm də torpağın rənginə daha yaxın olması, daha gözəl bir görünüş təqdim etməsi və ətraf mühit şəraitinə çox davamlı olması səbəbindən müştərilərin və məzar tikdirmək istəyən insanların əsas seçimidir. Fərqli rənglər və fərqli tonlar olmasına baxmayaraq, ümumi görünüşü bej-qəhvəyi və ağ-bej tonları arasındadır. Bunların xaricində, çəhrayı-bej tonları ilə xoş bir görünüş təqdim edən “Pink traverten” modelləri istifadə edilməyə başlanıb.

### Qranit məzar daşı

Qranit, ən çox dəyəri olan, lakin ən yüksək görmə keyfiyyətini təqdim edən və məzar tikdirmək istəyənlər üçün ən fərqli dizaynlara sahib olan daşdır. Qara rəngli modellər daha çox istifadə olunur.

### Hazır məzarlar

Qiymət baxımından çox aşağı olan bu məzar modellərində istifadə edilən daş, sıxılma nəticəsində əmələ gələn və gücü digər təbii daşlarla müqayisə oluna bilməyəcək qədər aşağı olan bir məhsuldur. Qiymət səviyyəsi olduqca aşağı olduğu üçün, həm material, həm də işçiliklə əlaqədar problemlər səbəbindən 1-2 il ərzində məzarda görünən aşınmalar və deformasiyalar olduğunu təsbit edə bilərsiniz.

### Qəbir inşasına və daş seçiminə təsir edən amillər

**1)** Daş Seçimi: Yuxarıdakı daş seçimi hissəsinə baxdıq. Qiymət, görünüş və davamlılıq baxımından əhəmiyyətli bir meyar olduğunu qeyd etdik. Daş modellərin əsas detallarına qısaca baxsaq;

Qranit: Bahalı, orta gücü, üstün memarlığı və görünüşü.

Mərmər: Orta qiymətə malikdir və həm davamlı, həm də möhkəmdir. Yüksək keyfiyyətli görünüşə malik dizaynlar hazırlana bilər.

Travertin: Çox yüksək gücü və davamlılığı, gözəl görünüşü olan məhsullar ucuz qiymət səviyyəsində istehsal edilə bilər.

**Hazır Qəbir:** Çox aşağı qiymətə, çox aşağı gücə və dayanıqlığa malik orta keyfiyyətli görünüşlü bir məhsuldur.



**2)** Zəmanət və dayanıqlılıq müddəti: Hazırlatdırdığınız məzar daşları üçün xarici faktorlara qarşı qeyd -şərtsiz zəmanət və dayanıqlılıq müddətlərini aydın şəkildə öyrənin. Yağışlı və qarlı havalarda istifadə olunan materiallar keyfiyyətsiz olarsa, problemlərə səbəb olacaq. Keyfiyyətli materiallardan hazırlanan qəbir daşında montaj prosesində belə problemlərlə qarşılaşmayacaqsınız.

**3)** Qəbir daşı ölçüləri: Məzarın ölçüləri, hazırlanacaq dizayn üçün əhəmiyyətlidir.

**4)** Qiymət faktoru və nümunələr: Ən bahalı məhsul qranitdir. Qiymətə təsir edən amillər arasında baş daş hissəsində olunan şəkillər, motivlər və lazer tətbiqləri var.

*SİA olaraq məsələ ilə bağlı, sosioloq, ekspert, psixoloq və din xadimlərinin də fikirlərini öyrənərək araşdırma etdik:*

**Sosioloq Əhməd Qəşəmoğlu:** “Təəssüf ki, öz yaxınlarına dəbdəbəli qəbir düzəltmək bu son on illiklərin əsas bəlasıdır. Yəni, əslinə qalsa bizim öz dinimiz islama görə də məsləhət görülmür ki, qəbir üstündə qeyri-adi dəbdəbə olsun. Sadəcə olaraq qəbrin üstündə bir kiçik daş olsa, qeyd olunsa ki, bu kimdir



o bəs edir. Əsrlər boyu din də bunu deyir, vərdişlər də, köhnə qəbiristanlıqlarda da belə idi. Amma bu son on illər maddiyyat amili gücləndiyindən, maddi dəyərlər mənəvi dəyərləri üstələdiyindən, insanlarda bir-biri ilə maddi üstünlüklərinə görə yarışma bəlası yarandığından belə bir hala gəlib çıxdıq.

Elə insanlar var ki, heç valideyni sağ olanda ona bir stəkan çay vermir, baxmır. Amma, öləndən sonra dəbdəbəli bir qəbir düzəltdirir. Bu özünü nümayiş etdirməkdir. Bu həmişə belədir. Cəmiyyətdə hansı dəyərlər üstün olursa, insanlar o dəyərə görə də çalışırlar fərqlənsinlər. Bu insanın psixologiyasıdır. İnsan həmişə fərqlənmək istəyir.

Bir ara böyük dəbə düşmüşdü ki, Azərbaycanda kimin evində yaxşı kitabxana olar, piano olar. Bu məsələn 77-ci, 80-ci illərin dəbi idi. Hamı çalışırdı ki, evində yaxşı kitabxanası olsun.

Sonra isə 20 il öncə mən qorxunc bir hadisə ilə rastlaşdım. Mənim evim biraz zəngin insanların yaşadığı çoxmərtəbəli bir evin yanında yerləşir. Hər səhər idmana gedirdim, gördüm ki, o zibillikdə o qədər qiymətli kitablar var ki, dəhşətə gəlirdim. Bunlar nə idi?! Artıq o maddi dəyərlərlə üstünlük qabağa keçmişdi, yaşlı adamlar ölmüşdü, onların gəlinləri, övladları evdə kitabları artıq görürdülər, atıb zibilliyə tökürdülər və çox qiymətli bir vaxtlar tapılmayan belə kitabları təsəvvür edin ki, mən Heydər Hüseynovun əsərlərini orada gördüm və götürdüm, hətta evə də gətirdim, başqa bir neçə belə çox qiymətli belə kitabları mən o zibillikdən götürmüşəm.

İndi bu hər vaxtın belə bir hökmü, dəbi var. Bu pis əlamətdir ki, maddiyyatla insanlar yarışanda belə bir hal yaranır. Bu bizim pis göstəricimizdir. Min illərdir ki, bütün tarix bunu göstərib, Peyğəmbərlər, müdrik insanlar, dini kitablar, hamı deyir ki, cəmiyyətdə mənəvi dəyərlərə üstünlük vermək lazımdır. Mənəvi dəyərlər öndə olanda o cəmiyyət özü-özünü tənzimləyir. Sıxışdırılanda isə orda gərginlik, qarşıdurma yaranır. Ona görə də bu qəbir məsələsi bizdə pis göstəricidir, qarşısını almaq lazımdır.

Naxçıvanda artıq bunun qarşısını alırlar. Naxçıvanda adi bir kənd qəbiristanlığına girirdim. 5-6 il bundan qabaq o kənd qəbiristanlığının özündə bir böyük tağlar qurulurdu, hay-küy baxırsan ki, kasıb bir adamdır, amma qəbrin üstündə böyük bir dəbdəbəli dəmirdən bir tağ düzəldib. İndi göstəriş verildi, onların hamısı söküldü, atıldı, sadə qəbiristanlıqdır.

Biz lap Avropaya baxaq. Kinolarda görürsünüz qəbirlərin üstü sadə bir daş olur, ayrı böyük bir heykəllər düzəltmək yoxdur. Ona görə də bunlar düşünürəm ki, tezliklə ortadan götürülsə daha yaxşı olar. Bunun üçün də əhali arasında mənəvi dəyərlərə münasibət dəyişməlidir. Yəni, bizim humanitar, sosial siyasətimiz bu istiqamətdə dəyişməlidir”.

**Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Fuad Nurullayev:** “Qəbir torpaqları, qəbirlərin verilməsi, tikdirilməsi, onlara müəyyən qeyri-adi başdaşları, mərmər, qoyulması hamısına iaşə xidməti baxır. Yəni, İcra Hakimiyyətləri baxır. Bizə onların heç bir dəlaləti yoxdur.

İnsanın boyuna uyğun qəbir qazılır, insanı üzü qibləyə qəbirə qoyurlar. Duasını deyirlər və üstünü örtürlər. Bununla dini sahədə olan



məsələ, vacibat tamamlandı. Qalan şey islamla bağlı olan məsələ deyil.

İslamda adət var ki, kişilər üçün qəbrin qazılması, normal insanın kəməri bərabərliyində olsa yaxşıdır, əgər o yer yumşaqdırsa, islam dinimizdə bu var və qadınlar üçün qazılan məzar biraz dərin qazılsa daha yaxşıdır. O da mümkündürsə, şərait varsa belə qazılmalıdır.

Məsələn, heyvanlar müəyyən ərazilərdə qəbirləri eşiblər, onları dağıdıblar və cəsədləri məzardan çıxarıblar. Bunu ehtiyat edərək, dini baxımdan insanlar elə dəfn olunmalıdır ki, onlar məzarlıqlardan çıxarılmasın, hörmətsizlik olmasın. Elə yerlər var ki, qayalıq, daşlıqdır. Hətta daş və qayaların üzərində insanlar üçün məzar tikib və onları orada dəfn ediblər ifadəsidə var. Yəni şəraitə uyğun edirlər.

Qəbir örtüləndən sonra ona nə cür daş qoyurlar, nə cür tikirlər İslam dinində o məsələlər yoxdur. O insanların özləri ixtiyarı olaraq bu işləri görüblər, heç kəsi dinləmədən, heç kəsə qulaq asmadan ediblər. Amma, istisna insanlar var tarixdə onların məzarları müəyyən şəxsiyyətlər tərəfindən tikilib, qurulub və tarix üçün bir yaddaşa çevrilib. Hətta, məsələn, müxtəlif nişanəli şəhid məzarlıqları onlar üçün müəyyən məzarlar səhmanlanıb, onlar üçün tarixi nişanələr qoyulub, nümunələr qoyulub, tarixi abidələr qoyulub və insanlar gələndə oranı ziyarət ediblər, onların həyat yolunu öyrəniblər. Onlar millət üçün, vətən üçün canlarını fəda ediblər və bugün bizim Şəhidlər Xiyabanında mərmərdən onlar üçün məzarlar düzəlib və şəkilləri də vurulub. Yəni, bu istisna hallar ki, var və yaxud tarixi şəxsiyyətlər məsələn, Peyğəmbərlər, İmamlar, böyük sərkərdələr, imperiya rəhbərləri və yaxud şahlar, prezidentlər və müəyyən tarixi şəxsiyyətlər var ki, istisna insanlardır. Onlar üçün büstlər, heykəllər də qoyulub və məzarları da qeyri-adi düzəldilib.

Məsələn, bugün insanlar Peyğəmbəri ziyarət edirlər, Peyğəmbərin qəbri üstə daş qoyulub ki, bu qeyri-adi bir daşdır. Yəni o zaman üçün o nümunəvidir və yaxud imamların məzarları var. Mən, bir neçə peyğəmbərin məzarını ziyarət etmişəm və görmüşəm. Orada böyük məscidlər, ziyarətgahlar tikiblər. Amma, sadə insanlar üçün bacardığımız qədər məzarı da sadə olmalıdır və ora böyük xərclərin çəkilməsinə ehtiyac yoxdur. Bu israfdır və israf da günahdır.

Dinimiz buyurur ki, “nə iş görürsünüz görün, amma israfa getməyin. İsraf insanı Allahdan uzaqlaşdırar”. Dinimizdə buna icazə verilmir. Yeyin, için, israf etməyin. Allah israf edənləri sevməz.

Müqəddəs quranımızın ayəsində belə də buyurulub. Ümumiyyətlə, məzarların tikilməsi və onların nə cür səhmanlanması ilə bağlı bizdən bir sorğu olunmur. İstər, Amerikada, istər Avropada, istər müsəlman məzarlıqları, istər xristian, istər yəhudi məzarlıqları hər birində əzəmətli qəbirlər tikili daşlar qoyulmuş daşlar da var, sadələri də var. Bunu o ərazinin insanları özləri öz istəkləri ilə edir. Amma birmənalı bizim insanlara məsləhətimiz, nəsihətimiz nə olar ki, çalışsınlar sadə insanlar üçün qeyri-adi məzarlıqlar tikməsinlər və bu işlərdə israfa getməsinlər və bunun dəmək olar ki, bir savabı yoxdur. Allah dünyasını dəyişənlərimizə rəhmət etsin. Allah təala bizi düzgün olan yola, haqqa Allah buyuranlara yönəltsin İnşallah”.

**Psixoloq Fərqanə Mehmanqızı isə məsələnin psixoloji yanlarına toxunub:** “Qəbirlərin dəbdəbəli olmasının bir neçə səbəbi var. Bəzi insanlar sağlığında yaxınlarının



mənəvi olaraq borcunu ödəyə bilmir. Ona görə də düşünürlər ki, onu üçün belə bir qəbir daşı düzəltməklə ona mənəvi borcunu verə biləcək. Çünki, yaşadığı zaman ona olan hisslərini biruzə verməyib, daha doğrusu verə bilməyib.

İkinci səbəb isə ətraf və camaatın düşüncələridir. “Cəmiyyət nə deyər?”, “Qoy, camaat görsün ki, bu necə oğuldur, övladdır” və s. düşüncələridir. Ümumiyyətlə, biz, cəmiyyət olaraq ictimai rəyənən yaşayırıq. Bunu ölümüzdə də, dirimizdə də əks etdiririk. Ona görə də belə hallar baş verir. Düşünürəm ki, qəbirlərin bu dərəcədə dəbdəbəli olması sadəcə göstərişdir”.

*Ayşən*

# Şəhidlərimizin əziz xatirəsi əbədi yaşayacaq və daim uca tutulacaq!

*YAP Səbail rayon təşkilatı şəhid ailələrini ziyarət edib*



YAP Səbail rayon təşkilatı Vətən müharibəsinin Şəhidləri Şükürlü Nicat Ayaz oğlu və Məmmədli Cəmil Habil oğlunun ailə üzvləri ilə görüşüblər. Şəhid ailələrinin üzvləri ilə söhbət zamanı qeyd olunub ki, qəhrəman Azərbaycan əsgər və zabitlərinin cəsarəti, mətanəti və milli ruhu xalqımıza Şanlı Qarabağ Zəfərini bəxş etdi. Bu tarixi Qələbə və Vətən torpaqlarının azadlığı uğrunda canını fəda edən Şəhidlərimizin əziz xatirəsi əbədi olaraq yaşayacaq və daim uca tutulacaqdır. Hər bir azərbaycanlı, bütün xalqımız Vətən müharibəsinin Şəhidlərinə, onların ailə üzvlərinə, Vətən uğrunda sağlamlığını itirən qazilərimizə, əlində silah düşmənlə üz-üzə qəhrəmanlıq dastanı yazan müzəffər Ordumuzun qalib əsgərlərinə minnətdardır. Şəhid ailələri, qazilərimiz, müharibə veteranları hər zaman Yeni Azərbaycan Partiyasının, o cümlədən rayon təşkilatımızın xüsusi diqqət mərkəzindədir və partiyanın bütün strukturları "Şəhid ailələrinə qayğı" davamlı aksiyalarında yaxından iştirak edirlər və bundan sonra da edəcəklər.



Şəhid ailələrinin üzvləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı olduqlarını bildirdilər və övladlarının əziz xatirəsini uca tutan möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə, dövlətimizə və onun bütün strukturlarına təşəkkür etdilər. Allah bütün Şəhidlərimizə rəhmət eləsin, ruhları şad olsun!

**Rəfiqə**

# Vətən oğullarının şərəfli ömür yolu nəsillərə örnəkdir





YAP Quba rayon təşkilatı tərəfindən "Şəhid ailələrinə qayğı" aksiyası çərçivəsində görüşlər davam etdirilir. Bu görüşlərin davamı olaraq, YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov və YAP fəalları Quba rayon Aşağı-Atuc kəndindən olan şəhid Əliyev Həmzə Tərlan oğlunun ailəsini ziyarət ediblər. Qeyd edək ki, 1998-ci il oktyabrın 1-də Qubanın Aşağı Atuc kəndində anadan olan Əliyev Həmzə Tərlan oğlu kənd tam orta məktəbində təhsil almışdı. Sadəliyi, mehribanlığı, qayğıkeşliyi, vətənpərvərliyi ilə bütün müəllim və şagirdlərin, kənd sakinlərinin, dostlarının dərin hörmətini qazanmışdı. Həmzə Əliyev Goranboy rayonunda "N" saylı hərbi hissənin artileriya bölüyündə xidmət etmişdi. Və ilk günlərdən hərbi andın tələblərini layiqincə yerinə yetirmiş, özünü nümunəvi, vicdanlı, intizamlı bir əsgər kimi göstərmiş, yoldaşları arasında hörmət qazanmışdı.

İkinci Qarabağ müharibəsi başlanan zaman respublikamızda səfərbərlik elan olunanda yüzlərlə qubalı kimi Həmzə də vətənin müdafiəsinə yollandı. İlk gündən əlinə silah alıb Cəbrayılın Vələnd, Papı, Tulus, Hacılı, Tinli kəndlərinin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə igidcəsinə vuruşub. Həmzə Əliyev Vətən torpağının azadlığı uğrunda qəhrəmancasına şəhid olub. O, ölümü ilə ölməzlik qazanmış, şəhidlik zirvəsinə ucalmışdır. Qubanın Şəhidlər xiyabanında dəfn olunub. Həmzə Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq, hərbi hissə qarşısında qoyulmuş tapşırıqlarının icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov bildirib ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini həmişə uca tutur. Şəhidlərimiz Vətənimizin işğaldan azad olunmuş torpaqları uğrunda öz qanından, canından keçərək, Şəhidlik zirvəsinə ucalıblar.O, qeyd edib ki, şəhidlərimiz kimi, onların ailələri, övladları da bizim üçün çox qiymətli və dəyərlidirlər. Şəhidlərimizin, qazilərimizin keçdikləri şərəfli ömür yolu gələcək nəsillərə örnəkdir. Torpağlarımızın azadlığı, Vətənimizin düşmən tapdağından xilas olması üçün canından keçən Azərbaycanın mərd oğulları- Şəhidlərimiz, Qazilərimiz bizim qürur mənbəyimizdir.

YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov şəhid ailəsinin problemləri ilə maraqlanıb və səlahiyyətləri daxilində problemlərin həlli üçün köməklik göstərəcəklərini bildirib.

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

# Zərdabda şəhid Ağaqardaş Abbasovun ildönümü qeyd olunub





Azərbaycanın hərb tarixinə Vətən müharibəsi döyüşləri kimi yazılan qələbəmizdən 1 il ötür. Həmin döyüşlərdə qələbə qazanmaqla yanaşı, biz şəhidlər də verdik. Şəhidlik zirvəsinə ucalıb adını tarixə yazdıran, ölümsüzlüyə qovuşan şəhid baş leytenant Ağaqardaş Abbasovun birinci ildönümüdür. Zərdab rayon icra hakimiyyətinin başçısı Mərdan Camalzadə və millət vəkili Jalə Əliyeva, millət vəkili Razi Nurullayev, YAP Zərdab rayon təşkilatının bir qrup fəal üzvləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Zərdab bölməsinin rəisi, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və bir qrup Vətən müharibəsi iştirakçıları şəhid Ağaqardaş Abbasovun ildönümü ilə əlaqədar şəhidin ailə üzvləri ilə birlikdə onun məzarını ziyarət ediblər. Şəhidin məzarı önünə gül dəstələri düzərək, ruhuna dualar oxunub.



Zərdab rayon icra hakimiyyətinin başçısı Mərdan Camalzadə ölkə Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevin əmri ilə silahlı qüvvələrimizin ölkəmizin ərazi bütövlüyünü təmin etdiyini və qəhrəmanlarımızın qanının yerdə qalmadığını bildirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri də müharibə veteranlarının, əlillərin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunmasıdır. Rayonda da şəhid ailələri və qazilərə diqqət və qayğı göstərilməsinin yüksək şəkildə təşkil olunması qeyd olunub. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan Cənab İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti, xalqımızın birliyi və müzəffər Ordumuzun peşəkarlığı sayəsində şəhidlərimizin qanı, qazilərimizin canı bahasına 30 illik həsrətə son qoyulmuşdur.

Tədbirdə iştirak millət vəkili Jalə Əliyeva Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən və qələbə ilə nəticələnən Vətən müharibəsində qanları ilə tarix yazan Azərbaycan əsgərinin şücaətindən söz açaraq, şəhidlərimizin qəhrəmanlıqlarını əks etdirən fikirlərini bildirib. Ölkə Prezidenti Cənab İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti, xalqımızın birliyi və müzəffər Ordumuzun peşəkarlığı sayəsində torpaqlarımız mənfur düşmən işğalından azad edildi. Ölkəmizin ərazi bütövlüyü təmin edildi. Qəhrəman gənclərimizin Vətən uğrunda göstərdiyi fədakarlıqlar dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Onların hər biri orden və medallarla təltif olunmuş, ailələri dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar.

Qeyd edək ki, Vətən müharibəsi şəhidi baş leytenant Abbasov Ağaqardaş İlham oğlu 1992-ci il sentyabrın 28-də, Zərdab rayonunun Hüseynxanlı kəndində anadan olmuşdur.Abbasov Ağaqardaş İlhamoğlu 28 sentyabr 2020-ci il tarixində, Füzuli rayonunun Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlmişdir. Onu da bildirək ki, Ağaqardaş doğum günündə şəhid olmuşdur. Bu gün onun cənnətdəki ilk doğum günüdür.Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən, şəhid baş leytenant, Abbasov Ağaqardaş İlham oğlu ölümündən sonra, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.Şəhidin ailəsi Möhtərəm Prezident Cənab İlham Əliyev və ölkənin Birinci Vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan məmnun olduqlarını ifadə etmişlər. Uca Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik.

**ZÜMRÜD BAYRAMOVA**

# Oğuz rayonunda şəhid Məhəbbət Paşayevin xatirəsi anılıb



Dünən Vətən müharibəsində Oğuz rayonundan olan ilk Şəhid Məhəbbət Vaqif oğlu Paşayevin şəhadətindən 1 il ötür. Şəhidin ailəsi, digər şəhid ailələri, YAP Oğuz rayon təşkilatının əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri şəhidlik zirvəsinə ucalmış Məhəbbət Paşayevin məzarına tər çiçəklər düzüb, ruhuna dualar oxuyublar. Daha sonra şəhidin evi ziyarət edilib. Cəmi Şəhidlərimizin ruhu şad, məkanları cənnət olsun!

**ZÜMRÜD**





# ARAZ-TÜRK RESPUBLİKASI NAXÇIVANIN MUXTARİYYƏT STATUSU QAZANMASINDA MÜHÜM ROL OYNAMIŞDI

## *TARİXƏ QISA NƏZƏR*

**Tarixdə xalqları əsarətdə saxlayan çoxəsrlik imperiyalarla yanaşı, mövcudluğu cəmi bir neçə ay çəkmiş dövlətlər də olmuşdur. Buna Araz-Türk Respublikasını, onun qısa, lakin qəhrəmanlıqla dolu tarixini də aid etmək olar. Qədim Roma filosofu Senakanın dediyi kimi, "Vətəni böyük olduğuna görə yox, özününkü olduğuna görə sevərlər". Məhz bu baxımdan müstəqilliyə gedən yolda tariximizin qaranlıq səhifələrini yenidən oxumaq, müasirlərimizə çatdırmaq hər bir vətəndaşın borcudur.**



Fevral-burjua inqilabından sonra Zaqafqaziyada, o cümlədən Azərbaycanda və onun ayrılmaz hissəsi olan Naxçıvanda siyasi vəziyyət mürəkkəb idi. 1917-ci ilin martında yaradılan Xüsusi Komitə, sonra onu əvəz edən Zaqafqaziya Komissarlığı vəziyyəti sabitləşdirə bilmədi.

1918-ci il aprelin 22-də Azərbajcan, Gürcüstan və Ermənistan nümayəndələrindən təşkil edilən SEYM də Zaqafqaziyada baş vermiş hərc-mərcliyə son qoymağa qadir olmadı. Diyarda milli ədavət daha da qızışdı. Əslində, hər yerdə müharibə gedirdi, SEYM-də də daxili ədavət günü-gündən şiddətlənirdi. Xüsusən, erməni nümayəndələr ərazi iddiaları irəli sürürdülər. Burada sovet diplomatı Q. V. Çiçerinin erməni millətçilərinin riyakarlıqlarını səciyyələndirən bir fikrini xatırlatmaq yerinə düşər: "Bütün Şərqdə işğalçı siyasətin aparıcıları, xarici kapitalın agentləri xain və satqın erməni daşnaklarıdır".

1918-ci ilin yazında Andronik 800 nəfərlik quldur dəstəsi ilə Naxçıvan və Şərur-Dərələyəz qubernilyalarına hücum etdi. Yerli əhaliyə kömək məqsədi ilə həmin il avqustun 7-də türk paşası Kazım Qara Bəkir Naxçıvana daxil oldu və erməni daşnak qüvvələrini darmadağın etdi. Buna baxmayaraq, ermənilər öz çirkin niyyətlərindən əl çəkmirdilər. Həmin ağır vaxtlarda Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparırdı. Cümhuriyyətin ölkəmizin ərazi bütövlüyünü qorumağa yönəlmiş tədbirlərindən biri də Naxçıvan məsələsi idi. Çünki, o dövrdə Naxçıvan ağır illər yaşayırdı. Həmin dövrdə Naxçıvan məsələsi həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif mənafelərin toqquşduğu, ziddiyyətlərin kəsişdiyi düyün nöqtələrindən biri idi.

Belə bir çətin vəziyyətdə vətənpərvər qüvvələr Naxçıvan bölgəsini erməni təcavüzündən qorumaq üçün 1918-ci il noyabrın əvvəllərində Araz-Türk Respublikasını yaratmağa nail oldular.

Bu respublikanın ərazisi Naxçıvan, Şərur-Dərələyəz, Ordubad qəzalarını, Sərdərabad, Uluxanlı, Qəmərli, Vedibasar, Mehri və digər bölgələri əhatə edirdi. Əhalisi 1 milyon nəfər, ərazisi 8 min 696 kvadratmetr olan respublika hökumətinin sədri Əmirbəy Nərimanbəyov, hərbi naziri isə İbrahimbəy Cahangiroğlu idilər.

Araz-Türk Respublikasının elan edilməsi hələ lap keçmişlərdən regional müstəqilliyə can atan Naxçıvan diyarı üçün böyük əhəmiyyət kəsb edirdi. Respublikada tezliklə milis idarələri yaradıldı. Burada əsas diqqət hərbi quruculuğa verilirdi. Bunun üçün türk əsilli Xəlil bəy hərbi müşavir təyin edildi, Türkiyədən 300 əsgər və 5 zabit göndərildi.




1918-ci il dekabrın əvvəllərində gənc respublikanın silahlı dəstələri bir neçə taborda birləşmişdilər. Baş Noreşen, Düdəngə və Zeyvə kəndlərində yerləşən taborlara Fətulla Hüseynov, Şərurda, Sədərəkdə yerləşən digər taborlara Həsən Şahverdi oğlu komandanlıq edirdi.

1918-ci ilin dekabrında Ermənistan Respublikası Araz-Türk Respublikasına qarşı genişmiqyaslı hücuma başladı. 1919-cu il yanvarın 8-də təcili olaraq Azərbaycan Parlamentinin 7-ci sessiyası çağırıldı. Həsən bəy Ağayev Araz-Türk Respublikası parlamenti üzvlərinin imzaladıqları ərizəni oxudu. Ərizədə deyilirdi ki, ermənilər Şərur qəzasını tutublar və Naxçıvana sarı hərəkət edirlər. Əhali qılıncdan keçirilir, təcili tədbirlər görülməlidir.

Könüllülər öz atları, silah və ərzaqları ilə döyüşlərdə igidlik göstərən Qırmızı taborçulara yardım edirdilər. Həsən Şahverdi oğlunun taboru və Kəlbalı xanın komandir olduğu dəstələr ermənilərə güclü müqavimət göstərirdilər. Polkovnik Doluxanyanın komandanlığı altında erməni qoşunları Şərura hücuma başlayanda Sədərək taboru dərhal şərurluların köməyinə gəldi və düşmən darmadağın edildi. 4 ay davam edən müdafiə və hücum əməliyyatından sonra, nəhayət Şərur daşnak qoşunlarından azad edildi.

Tarixi faktlar təsdiq edir ki, 1918-ci ilin noyabrında yaradılan Araz-Türk Respublikası 1919-cu il martın əvvəllərində süquta uğramışdır. Respublika süquta uğradıqdan sonra 1920-ci ilin əvvəllərində Şərur Qəza İnqilab Komitəsi təşkil edildi. Komitə Baş Noraşendə yerləşirdi.

Yanvarın 3-də "Azərbaycan" qəzeti yazırdı: "İrandan gələn 25 minlik erməni qoşunları Sədərək kəndindən keçərək 8 müsəlman kəndini mühasirəyə almış, onları tərksilah etmişlər. Naxçıvan və Şərur sakinləri İrana keçməyə hazırlaşırdılar. Arazı keçərkən 200-dən çox adam həlak olmuşdu".

Ermənilərin Naxçıvana hücumları Azərbaycanın bu qədim diyarında vəziyyəti xeyli çətinləşdirmişdi. Azərbayjan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi bu respublika ilə birləşmək istəyirdi. Amma mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin arzusunu hayata keçirməyə imkan vermirdi. Azərbaycan Xalq Cümhuriyyətinin baş nazirləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli imkanları daxilində Naxçıvana kömək edir, Azərbayjanın bu qədim ərazisinin qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi vasitələrdən istifadə edirdilər. Onlar qəhrəman naxçıvanlıların fəaliyyətini yüksək qiymətləndirirdilər. 1919-cu il dekabrın 22-də Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında demişdi: "İgid naxçıvanlılar, şərurlular bu məsələni özləri həll ediblər, onlar həyatlarını və var-dövlətlərini riskə qoyaraq doğma torpağa, Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar".

Göründüyü kimi, Naxçıvan əhalisi bu qədim diyarın ermənilər tərəfindən işğal edilməsinə yol verməmişdir. Bir sözlə, yerli əhalinin igidliyi və qəhrəmanlığı sayəsində Naxçıvan əhalisi Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmışdır.

1919-cu il fevralın 28-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Qərarı ilə Naxçıvan General-Qubernatorluğu yaradıldı. Bəhram xan Naxçıvanın general-qubernatoru təyin edildi. Bir sözlə, ermənilərin Naxçıvan torpaqlarına yiyələnmək cəhdi puça çıxdı. Naxçıvan-Şərur qəzasının əhalisi erməni daşnaklarını əzərək onları qaçmağa məcbur edib suverenliyi qoruyub saxladılar. Sonralar bu məsələdən bəhs edən Ermənistanın birinci baş naziri olmuş Kaçaznoni 1923-jü ildə etiraf etmişdi ki, "Müsəlman Naxçıvanı və Şərurunda... inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik. Silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah güjünə qura bilmədik. Məğlub olduq və geri çəkildik".

Daşnak respublikasının cinayətkar və iyrənc siyasəti Zaqafqaziya xəritəsindən gənc suverən respublikanın - Araz-Türk Respublikasının silinməsinə gətirib çıxardı.

Çox qısa zaman kəsiyində mövcud olan və geniş fəaliyyət göstərən respublikanın əsasən Naxçıvan bölgəsi və çevrəsinin ermənilərin güclü hərbi və siyasi diplomatik təzyiqinə məruz qalması, AXJ ilə geniş əlaqələr yarada bilməməsi, ona yetərincə hərbi, siyasi maliyyə yardımı göstərilməməsi səbəbindən süquta uğradı.

Araz-Türk Respublikasının süqutu, eyni zamanda, ermənilərin 1919-cu ilin əvvəlində bölgəyə hücumları ilə bağlı yaranan ağır və mürəkkəb şəraitlə də əlaqəli idi. Respublikanın süqutunu şərtləndirən amillərdən biri də demokratik dövlət strukturları nümayəndələri ilə yerli feodal əyanları arasındakı ziddiyyətlər idi.

Nəhayət, Araz-Türk Respublikasının yaradılması və qısamüddətli fəaliyyəti böyük tarixi əhəmiyyətə malik idi. Bu respublika Azərbaycan üçün çox ağır və gərgin bir dövrdə Naxçıvan bölgəsi əhalisinin erməni daşnaklarına qarşı mübarizədə səfərbərliyə alınmasında mühüm rol oynadı. Ən başlıcası isə bu ərazilərin erməni daşnaklarının əlinə keçməsinə imkan verməməklə, Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyünü təmin etdi.

Fəxr edilməli bir cəhət də odur ki, əsasən Naxçıvan və Şərur qəzalarında yaşayan əhalidən təşkil edilmiş Qırmızı Tabor istiqlaliyyətimiz uğrunda aparılan mübarizədə həmişə ön sırada oldu, onlar erməni təcavüzünün qarşısını mətinliklə aldılar.

Bu yazıda Araz-Türk Respublikasının yaranma səbəblərini və süquta uğramasının bəzi məqamlarını təhlil etməyə çalışdıq. Və bu qənaətə gəldik ki, dövlətini yaratmaq cəhdində ifadə olunmuş azadlığı məhv etmək olar, xalqın nəsildənnəslə ötürülən azadlıqsevər ruhunu isə heç vaxt!

***Vidadi SÜLEYMANOV***
***Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq Mühafizə Orqanları Veteranları Şurası Şərur Rayon Təşkilatının sədri, təqaüddə olan tarix müəllimi***



# YAP Qazax rayon təşkilatının üzvləri şəhid ailələrini ziyarət ediblər

Yeni Azərbaycan Partiyasının keçirdiyi "Şəhid ailələrinə qayğı" aksiyası çərçivəsində Qazax rayon təşkilatı şəhid Elmar Bayramlı İsa oğlunun şəhid olmasının ildönümü ilə əlaqədar məzarını ziyarət edib, ruhuna dualar oxunub. Sonra rayon təşkilat üzvləri şəhid Elmar Bayramlı İsa oğlunun ailəsini ziyarət edib, onların problemləri ilə maraqlanıb, ailəsinə qəhrəman oğul böyütdüklərinə görə təşəkkür edib, həmçinin ailəyə maddi yardım ediblər.

Rayon təşkilatının üzvləri Vətənimizin azadlığı uğrunda öz qanından, canından keçərək şəhidlik zirvəsinə ucalmış övladlarımızın dövlətimiz tərəfindən daim yüksək qiymətləndiriləcək heç zaman unudulmayacağını, onların adlarının əbədiləşdirilməsi üçün addımlar atıldığını vurğulayıblar. Torpaqlarımızın azadlığı, Vətənimizin düşmən tapdağından xilas olması üçün canından keçən Azərbaycanın mərd oğulları - Şəhidlərimiz, qazilərimiz qürur mənbəyimizdir.

Şəhidin ailəsi böyük fəxr hissi ilə şəhidlərimizin qanını yerdə qoymadıqlarına, xalqımıza qələbə sevinci yaşatdıqlarına görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müzəffər Azərbaycan Ordusuna minnətdarlıq ediblər.

Eyni zamanda, ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan məmnunluq ifadə olunub.

***R.HÜSEYNOVA***

ANALİTİK+FAKT

# "Armenianreport" Qarabağ ermənilərini qorxaqlıqda ittiham etdi

**Sentyabrın 27-də tanınmayan qondarma və separatçı quldur rejimi Xankəndidə İkinci Qarabağ müharibəsində gəbərdilmiş terrorçuların "xatirələrini" anmaq məqsədi ilə məşəl yürüşü keçirib.**

SİA xəbər verir ki, həmin yürüşdə iştirak edən separatçılar əllərində işğaldan azad olunmuş Azərbaycan ərazilərinin özləri tərəfindən saxtalaşdırılmış adlarını əks etdirən plakartlar qaldırıb, eyni zamanda, qondarma rejimin bir neçə metrlik uzunluğunda hazırlanmış əski parçasını daşıyıblar.



Lakin maraqlı məqam budur ki, Ermənistanda kifayət qədər oxunan saytlardan biri kimi fəaliyyət göstərən "Armenianreport" həmin yürüşü sərt şəkildə ittiham edərək Qarabağ ermənilərini qorxaqlıqda, fərarilikdə və alçaqlıqda suçlayıb. Belə ki, məqalənin müəllifi və adıçəkilən saytın analitik yazarı Tevos Arşakyan bir neçə minlik kütlə arasında kifayət qədər gənclərin, əlinə silah ala biləcək insanların olduğunu bildirərək, 44 günlük müharibə vaxtı onların harada olduqlarını soruşub.

> Əslində bu, bütövlükdə Ermənistandakı ermənilərin Qarabağ ermənilərinə olan nifrətli münasibətlərinin aşkar nümunəsidir

### "Ay hörmətsizlər, bəs müharibə vaxtı harada idiniz?"

"Siz indi kədərli və matəm sifətləriniz ilə Qarabağın paytaxtında addımlayırsınız. Ay hörmətsizlər, bəs müharibə vaxtı harada idiniz?", deyə sual edən erməni analitik yazarı qeyd edib ki, hətta müharibənin ən qızğın vaxtlarında bu gün məşəllə küçələrə çıxanların heç biri meydanda olmayıblar.

Bu arada onu xatırlada bilərik ki, erməni blogeri Roman Baqdasaryan 44 günlük müharibə zamanı ermənilərin fərarilikləri barədə faktlara əsaslanan çıxışlar edib və bu çıxışlar əsnasında döyüş meydanından qaçanların əksəriyyətinin qarabağlı ermənilər olduğunu deyib.



### "Bütün bunlar dəhşətli ittihamlardır, ancaq çoxu sonradan təsdiq olundu..."







Bu mənada, "Armenianreport"un analitik yazarı bloger Roman Baqdasaryanın dediklərinə haqq qazandırıb: "Mən uzun müddət müharibə haqqında qorxulu söhbətlər edən Roman Baqdasaryanın sözlərinə inanmaq istəmirdim. O cümlədən, "artsaxlı" (qarabağlı) ermənilərin yaralı hərbçilərin daşınmaları üçün şəxsi nəqliyyat vasitələrini verməmələri, kişilərin böyük əksəriyyətinin "stepanakert" (Xankəndi) zirzəmilərində gizlənmələri, Ermənistana qaçmaları barədə danışdıqlarını da eşitmək istəmirdim. Bütün bunlar dəhşətli ittihamlardır, ancaq çoxu sonradan təsdiq olundu...

Mən bizim döyüşçülərlə söhbət etmək imkanı tapdım və onlar da kədərlə Baqdasaryanın dediklərini təsdiq etməklə yanaşı, "artsaxlıların" ünvanına ağır həqarətlər işlətdilər".

"Armenianreport"un analitik yazarı sözügedən ittihamlı məqaləsində Qarabağ ermənilərini sərt şəkildə suçlamağa davam edərək onu da yazır ki, Qarabağ əhalisinin böyük kəsimini təşkil edən kişilər evlərini qorumaları yerinə, qadın və uşaqlarla təhlükəsiz Ermənistana qaçmağı üstün tutdular.

### Qarabağ ermənilərinin həyasızlıqları, hay-şivənçilikləri sayəsində yenidən baş qaldırmaq cəhdləri, əslində, Ermənistanın özündə nifrətlə qarşılanır

Daha sonra "Nəticədə belə alındı ki, onların yerinə Ermənistandan, Cavaxetiyadan, Abxaziyadan, Rusiyadan, Ukraynadan gələn ermənilər döyüşlərə qatıldılar, ancaq bu sıralarda "artsaxlıları" barmaqla saymaq olardı. Halbuki, həmin vaxt orada onların olması lazım idi, çünki həmin əraziləri onlar yaxşı tanıyırdılar. Həmin vaxtların videoxronikalarına baxın və qaçanlar arasında nə qədər kişilərin olduğunu görərsiniz", yazan erməni müəllif İrəvanda Qarabağ ermənisi olan bir gəncin qorxaqlıqda ittiham edilərək döyülməsi faktını da xatırladıb və bu kimi halların təktük olmadığını yazıb, üstəlik, davam edəcəyini də istisna etməyib.

Bütün bunlar isə bir reallığı sübuta yetirir: ermənilər hazırda bütünlüklə illər uzunu törətdikləri alçaqlıqlarının, ləyaqətsizliklərinin bədəlini, karmasını ödəyirlər. Bəli, onlar hələ ki, Qarabağın kiçik bir hissəsində Rusiya sülhməramlıları kontingentinin nəzarət etdikləri bölgələrdə özlərini qısa müddətli rahat hesab edə bilərlər, hətta əski parçalarını uzun dirək bağlayıb onu qaldırmaqla əsəblərimizlə də oynaya bilərlər. Amma inanın ki, bu kimi məsələlərlə onların "artsax" xülyaları heç vaxt ayaqda qala bilməyəcək, necə ki, qalmayıb. Məhz bu kontekstdən də çıxış edərsək qənaətə gələ bilərik ki, bu gün Qarabağ ermənilərinin həyasızlıqları, hay-şivənçilikləri sayəsində yenidən baş qaldırmaq cəhdləri, əslində, Ermənistanın özündə nifrətlə qarşılanır. Bunu isə elə "Armenianreport"un analitik yazarı Tevos Arşakyanın sözügedən ittihamlı məqaləsindən də sezmək əsla çətinlik yaratmır. Hətta deyə bilərik ki, bu cür yanaşma elə Ermənistanda Qarabağ ermənilərinə olan nifrətli münasibətlərinin aşkar nümunəsidir.

*Rövşən RƏSULOV*

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Ağdərə və Xocalı məsələsi: od olmasa tüstü çıxmaz

**Ötən həftə sosial şəbəkə seqmentlərində ən çox danışılan mövzulardan biri də Rusiya sülhməramlıları kontingentinin (RSK) məsul olduncuğu ərazilərimizdə yerləşən iki inzibati vahidin - Ağdərə və Xocalının Azərbaycanın yuridiksiyasına veriləcəyi prosesinin başlanacağı barədə oldu. Hətta müstəqil blogerlərin xüsusilə Ağdərə istiqamətinə ən yaxın olan ərazilərdən videoçəkilişləri də aparıldı. Məhz bu görüntülər məlumatın daha çox reallığa yaxın olmasını nümayiş etdirdi. Çünki buna daha bir səbəb Rusiyanın RBK agentliyinin sözügedən məsələ ilə bağlı xəritə yayması oldu. Agentlikdə "Hazırda rus sülhməramlılarının müvəqqəti yerləşdiyi bölgəyə daxil olan keçmiş Ağdərə rayonu, Xocalı və Xocavəndin mərkəzi Azərbaycana təhvil verilir", deyə informasiya yerləşdirilsə də, sonradan bu məlumat adıçəkilən deaktiv edildi, yəni silindi.**

Lakin təbii ki, istər Ağdərə olsun, istər Xocalı olsun, istər Əsgəran olsun, istərsə də Xankəndi və digər inzibati ərazi vahidləri olsun - ümumiyyətlə, bu ərazilərimizin tezliklə Azərbaycana təhvil verilməsi prosesi baş tutacaq və buna da kimsənin şübhəsi yoxdur. O cümlədən, bu məlumatın Rusiyanın nüfuzlu saytlarının birində yerləşdirilməsi və sonradan silinməsi isə suallar yaratdı: xəbər niyə ictimailəşdirildi və sonra da aradan qaldırıldı? Bu xüsusda qədim atalar sözümüzü xatırlamağın tam yeridir - od olmasa, tüstü çıxmaz. Deməli, ortada nə isə var və bu "nə isə" gec, ya da tez üzə çıxacaq.

Əlbəttə ki, separatçılar da bu məlumatdan təşvişə düşdülər və həmin təşvişi araşdıran separaçı siyasi ekspert Bella Lalayan da bəzi detalların üzə çıxmasına, həmçinin müəmmaların işıq üzü görməsinə kifayət qədər zəmin yaratmış oldu. Misal üçün, onun dediyinə görə, Xocalının və Ağdərənin Azərbaycana, yəni sahibinə təhvil verilməsi haqqında son zamanlar daha tez-tez danışırlar. Və o cümlədən, həmin danışıqlar yalnız sadə insanlar arasında deyil, həmin msələ eləcə də quldur rejimin pərdəarxası kuluarlarında ən çox bəhs edilən mövzulardandır.

Ermənilərin "Hraparak" qəzeti isə öz araşdırmasını apararaq bir sıra nəticələrə gəlib. Qəzetin jurnalisti əvvəlcə quldur rejim "parlamentinin xarici əlaqələr komitəsinin üzvü", daşnaksyutun təmsilçisi Vahram Balayandan proses barədə nə isə öyrənmək istəyib. Lakin sonuncu onun suallarını cavablandırmaması ilə yanaşı, suala cavabın verilməsi üçün həm də daha "böyük" şəxslərin üzərinə göndərib.

Nəticədə erməni media təmsilçiləri qondarma qurumun baş separatçı-qulduru Araik Arutyunyanın özünə "çıxa" biliblər. Məhz onda əsl həqiqətlər üzə çıxıb.

Baş separatçı-quldur əvvəlcə deyib: "Hələlik bu məlumatı şərh etməyəcəm". Ondan niyəsini soruşanda isə "Əlimdə rəsmi nə isə olanda şərh edəcəyəm", deyə o jurnalistlərə cavabında bildirib.

**Bəs bu cavablardan hansı nəticələri hasil etmək olar?**

**1.** "Hələlik bu məlumatı şərh etməyəcəyəm" deməklə, əslində Araik belə bir mövzunun gündəmdə olduğunu isbatlayıb, yəni məlumat mövcuddur və çox yəqin ki, erməni jurnalistləri də bunu seziblər.

**2.** "Əlimdə rəsmi nə isə olanda şərh edəcəyəm", deyən Arutyunyan bu cavabı ilə də etiraf edib ki, o İrəvandan komana gözləyir və həmin mövzu ətrafında RSK-nin vasitəşçiliyi ilə yekun nəticələr müəyyən edilməkdədir.

**3.** Erməni jurnalistlərin "İmzanız olmadan həmin bölgələrin Ermənistan hakimiyyəti tərəfindən təhvil verilməsi mümkündürmü?" sualını da cavablandıran baş separatçı-quldur "bunu Ermənistan hakimiyyətindən soruşun", cavabını verməsi ilə növbəti dəfə təsdiq edib ki, artıq İrəvandan ona siqnal verilib və hazır olması tapşırılıb.

Beləliklə, bir daha "od olmasa tüstü çıxmaz" məsələsi yada düşür və çox yəqin ki, yalnız Ağdərə və Xocalının deyil, Qarabağımızın yerdə qalan hissəsinin də birdəfəlik olaraq separatizm caynaqlarından xilas olacağına özümüz qədər inanır və əlbəttə ki, səbrsizliklə gözləyirik!

# Azərbaycan peyvəndlərin paylanmasında ədalətli bölgünü dəstəkləyir

## Prezident İlham Əliyev:

### “Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır”

**Yeni növ koronavirus COVID-19 pandemiyası bəşəriyyəti narahat edən məsələ olaraq qalır. Koronavirusun dünyada vüsət almasını nəzərə alaraq hər kəs daha da məsuliyyətli olmalıdır. Təbii ki, hər an bu xəstəliyə yoluxa biləcəyimizi düşünməliyik və bunun üçün istənilən yerdə tələb olunan əməllərə riayət etməyimiz vacib məsələdir.**

Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan o dövlətlərdəndir ki, pandemiya başladığı və yayıldığı ilk günlərdən ölkəmizdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə COVID-19 pandemiyasının geniş şəkildə insanlar arasında yayılmasının qarşısının alınması məqsədi ilə vaxtında zəruri qabaqlayıcı tədbirlər həyata keçirilməyə başladı və bu, davamlıdır. Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı videoformatda çıxışı zamanı bildirdiyi kimi, “COVID-19 pandemiyası bütün dünya üçün ciddi çətinliklər doğurmaqda davam edir. Hökumətimiz ilk günlərdən əhalinin qorunması və pandemiyanın mənfi təsirinin minimuma endirilməsi məqsədilə mühüm və praktiki tədbirlər həyata keçirir”.

**“PANDEMİYA İLƏ MÜBARİZƏ SAHƏSİNDƏ AZƏRBAYCANIN MÜFƏSSƏL SƏYLƏRİ BEYNƏLXALQ SƏVİYYƏDƏ QƏBUL EDİLİB”**

Qısa bir zaman məsafəsində virusla mübarizə istiqamətində tədbirlər həyata keçirildi. Ölkə Prezidenti İlham Əliyevin göstərişi əsasında Nazirlər Kabinetinin Sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı təsdiq edildi. Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında Operativ Qərargah yaradıldı. Ölkəmizdə pandemiya ilə mübarizə üçün zəruri infrastruktur yaradılması, bütün texniki-təşkilati məsələlər uğurla həllini tapmış oldu. Dövlət başçısı bildirib ki, düzgün planlaşdırılmış tədbirlərin həyata keçirilməsi nəticəsində pandemiya ilə bağlı vəziyyət nəzarət altında saxlanılıb və ölkəmizdə tətbiq olunmuş karantin rejimi tədricən yumşaldılıb: “Pandemiya ilə mübarizə sahəsində Azərbaycanın müfəssəl səyləri beynəlxalq səviyyədə qəbul edilib. 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırıb”.

**“HƏR 100 NƏFƏRƏ İSTİFADƏ EDİLMİŞ VAKSİN DOZALARININ HƏCMİ 80 FAİZDƏN ARTIQDIR”**

Təbii ki, COVID-19-la mübarizədə qalib gəlmək üçün virus əleyhinə peyvəndlənmə vacibdir. Bildiyimiz kimi, vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Belə ki, ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlayıb. Bu proses 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində aparılır. “Azərbaycan cari ilin yanvar ayının ortalarından peyvəndləmə kampaniyasına başlayıb”, - deyən Prezident qeyd edib ki, hər 100 nəfərə istifadə edilmiş vaksin dozalarının həcmi 80 faizdən artıqdır.

Vətəndaşlar bilməlidirlər ki, peyvənd olunmaq COVID-19-dan qurtulmaq üçün yeganə çıxış yoludur. Azərbaycanda sentyabrın 30-na qədər vurulan vaksinlərin ümumi sayı 8 milyon 485 min 952, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 745 min 715, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 3 milyon 740 min 237 nəfər təşkil edir. Vaksinasiya zamanı “CoronaVac”, “Vaxzevria”, “Sputnic V”, “Pfizer”, “Sinovac” kimi peyvəndləri istifadə edilir. Statistika göstərir ki, COVID-19 testi pozitiv olanların 90 faizindən çoxu peyvənd olunmamış şəxslərdir. Mütəxəssislərin fikrincə, elmi araşdırmaların nəticələrinə əsasən, müəyyən olunub ki, peyvəndləndikdən sonra virusa yoluxan şəxslərdə virus yükü əhəmiyyətli dərəcədə aşağı olub.

**“30-DAN ARTIQ ÖLKƏYƏ KORONAVİRUSLA MÜBARİZƏNİN DƏSTƏKLƏNMƏSİ ÜÇÜN HUMANİTAR VƏ MALİYYƏ YARDIMI ETMİŞİK”**

Cənab Prezident çıxışında qeyd etdiyi kimi, düzgün planlaşdırılmış tədbirlərin həyata keçirilməsi nəticəsində pandemiya ilə bağlı vəziyyət nəzarət altında saxlanılıb və ölkəmizdə tətbiq olunmuş karantin rejimi tədricən yumşaldılıb: “Pandemiya ilə mübarizə sahəsində Azərbaycanın müfəssəl səyləri beynəlxalq səviyyədə qəbul edilib. 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırıb”.

Dövlət başçısı Azərbaycanın bu istiqamətdəki fəaliyyəti özünün maliyyə resursları hesabına həyata keçirdiyini diqqətə çatdırıb. Onu da bildirib ki, biz, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi, 30-dan artıq ölkəyə koronavirusla mübarizənin dəstəklənməsi üçün humanitar və maliyyə yardımı etmişik. Bütün bunlarla yanaşı olaraq Azərbaycan dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərib.




**“DÜNYADA MÖVCUD OLAN PEYVƏND DOZALARININ 75 FAİZİNDƏN ÇOXU 10 ZƏNGİN ÖLKƏ TƏRƏFİNDƏN ALINIB”**

Azərbaycan pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. “Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır” - deyən Cənab Prezident Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın bir sıra qlobal təşəbbüslər irəli sürdüyünü diqqətə çatdırıb: “2020-ci ilin may ayında Azərbaycan Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin COVID-19 ilə mübarizəyə həsr edilmiş Zirvə toplantısını təşkil etmişdir. Zirvə toplantısı zamanı Mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsini təklif etdim. Həmin təşəbbüs BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəkləndi və 2020-ci il 3-4 dekabr tarixlərində xüsusi sessiya baş tutdu”.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə Görüşünün əsas məqsədi milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birinə dəstək göstərilməsi və xalqlar arasında həmrəyliyin möhkəmləndirilməsi idi. Dövlət başçısı inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırmışdı.

Bu gün peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bildiyimiz kimi, Azərbaycan peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək BMT-nin İnsan Hüquqları Şurasında “Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi” adlı qətnamə layihəsi irəli sürmüşdü. “Azərbaycan dəfələrlə açıq şəkildə peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınması ilə bağlı öz narazılığını ifadə edib”, - deyən Prezident qeyd edib ki, biz davam edən “peyvənd millətçiliyi” və peyvəndlərə çıxışla əlaqədar inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında dərinləşən qeyri-bərabərliklə bağlı narahatlığımızı bir daha vurğulayırıq: “Belə hərəkətlər inkişaf etməkdə olan ölkələrin öz əhalisini qorumasını əngəlləyir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 75 faizindən çoxu 10 zəngin ölkə tərəfindən alınıb, aşağı gəlirli ölkələrdə isə peyvəndlənmə 2 faizdən azdır. Bu məsələyə beynəlxalq diqqətin cəlb edilməsi məqsədilə Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul edilib. Cari sessiya çərçivəsində Azərbaycan BMT Baş Assambleyasına eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır.”

Əlbəttə ki, bu gün ölkəmizdə peyvəndlənmə davamlı olaraq aparılır. Amma yaddan çıxarmamalıyıq ki, peyvənd vurdurduqdan sonra belə özünümühafizə qaydalarına əməl etmək vacibdir. Dövlət başçısının “Biz birlikdə güclüyük!” çağırışı pandemiyaya qarşı mübarizədə hər kəsi həmrəy olmağa səslədi və hər bir insan tələb olunan qaydalara əməl etməyə vətəndaş olaraq borcludur. Tibbi maskadan və dezinfeksiya məhlullarından istifadə etmək, sosial məsafəni qorumaq vacib şərtdir və vətəndaş məsuliyyətimizdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Etirazlar başlayıb:

## Ermənilər yeni dövlət büdcəsindən narazıdırlar





**Sentyabrın 30 -da Ermənistan hökumətinin iclasında gələn ilin dövlət büdcəsi layihəsi elə də çox müzakirə edilmədən təsdiq edilib. Amma maraqlıdır ki, büdcəsi layihəsinin təsdiqi üçün Nikolun sənədin altına atdığı təsdiq imzası qurumamış, artıq sənədə “mız” qoyanlar, yəni sənədin bütün parametrlərindəki bəndlərə, hətta baş nazirin dediyi “görünməmiş artıma” irad tutanlar peyda olmağa başlayıblar.**



Gəlin, əvvəl ermənilərin yeni dövlət büdcəsi layihəsinə diqqət çəkək. Beləliklə, gələn ilin dövlət büdcəsi layihəsində gəlirlər - 1 trilyon 946.2 milyard, xərclər - 2 trilyon 188.4 milyard, kəsir - 242.2 milyard dram təşkil edəcək. Büdcə xərcləri keçən ilə nisbətən 18,2 faiz artacaq. Vergilərin ÜDM -ə nisbəti 0,9 faiz artaraq 23,4 faiz təşkil edəcək. Dövlət borcunun ÜDM -ə nisbəti azalaraq və ilin sonunda 60.2 faizə çatacaq. Kapital qoyuluşları artaraq 350 milyard dram təşkil edəcək. Təhsil, elm, mədəniyyət və idmana ayrılan vəsait 27,4 faiz artacaq və 223 milyard dram təşkil edəcək, o cümlədən təkcə elmə ayrılan vəsait 82 artacaq və s. və ilaxır. Deyim ki, hər şey yerində və elə bil hər şeyi ermənilər öz əlləri ilə qoyublar...

Yaxşı, bəs belə olan halda, ermənilərə deyən gərək, burada irad tutulası nə var? Hər şey açıq şəkildə, özü də dediyimiz kimi, yerli-yerində. Amma bəzi ermənilərə nə var ki, onlar üçün yalan da olsa, hay-həşir salmaq elə də çətinlik törətmir.

Məsələn onlar deyirlər ki, Paşinyan layihə ilə bağlı öz mesajında, dövlət büdcəsinin üç “dayağa” əsaslandığını bildirir: təhlükəsizlik sisteminin təkmilləşdirilməsi, infrastrukturun inkişafı, təhsil və səhiyyənin modernləşdirilməsi.

Baş nazir bunlara nail olmağın əsas yolunu “dövrədən çıxmaqda” görür.

İndi də keçək bəzi ermənilərin yeni büdcə layihəsindəki iradlarına. Məsələn, onlar 2022 -ci ilin sonuna qədər Ermənistanda dövlət borcunun ÜDM -ə nisbətini 60,2 faizə endirmək niyyətini qəbul etmək istəmirlər. Deyirlər ki, indiki erməni cəmiyyətində bunu reallaşdırmaq üçün hökumət haradansa borc götürməlidir, amma haradan? Axı, erməni hökuməti haradansa borc götürməyə də bir üz yeri də qoymayıb. Amma yenə də “..yeməkdən ümid yaxşıdır”.



Deməli, ermənilərin növbəti iradı Paşinyanın “analoqu olmayan” kapital xərcləri üçün dövlət büdcəsi layihəsinə daxil olan 350 milyard dramla bağlıdır. Burada ermənilər “dad” edib deyirlər ki, “...artıq 3 ildir ki, onlar hətta yarıya belə yerinə yetirilməyən proqram göstəricilərinin xroniki şəkildə yerinə yetirilməməsini praktikada müşahidə edirlər”. Bəli, redllıqda yox, sadəcə olaraq praktikada...

Amma məsələ bundadır ki, deyəsən bu-



nu Paşinyan da yaxşı anlayır deyə, artıq bütün nazirliklərə elə bu gündən etibarən dövlət satınalmaları çərçivəsində tenderlərin hazırlanmasını və elan edilməsi barədə tapşırıq verib.

Deyim ki, erməniləri gələn ilin dövlət büdcəsi layihəsində narazı salan məqamlardan biri də, onların yaralı yeri olan maddiyyatla bağlıdır. Belə ki, 2022-ci il dövlət büdcəsi layihəsində maaş və pensiyaların artımı barədə heç nə deyilmir. Yəni, belə görünür ki, “bu barədə söhbət belə gedə bilməz”. Yalnız üçüncü və ya sonrakı uşağını dünyaya gətirəcək ailələr sevinəcəklər. Belə ki, gələn il yanvarın əvvəlindən etibarən həmən uşaqların valideynlərinə uşaqlar 6 yaşına çatana qədər ayda 50 min dram ödəniləcək.

***Ağasəf Babayev***

# “Ermənilər getmiş qatarın arxasınca ağlayırlar”

**POLİTOLOQ AÇIQLADI**

**“Hər şeydən əvvəl qeyd edim ki, cənab Prezidentin “Anadolu” Agentliyinə verdiyi müsahibə Azərbaycan dövlətinin yaxın müddət ərzində prioritetlərini müəyyənləşdirib. Eyni zamanda Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərini göstərib. Cənab Prezident burada müharibə zamanı və müharibədən sonra Azərbaycanın yanında olanları və olmayanları xüsusilə qeyd edib”. Bunları SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.**

Onun sözlərinə görə, burada da əsas məqsəd ondan ibarətdir ki, Ermənistan bu gün də revanşizm, milli ayrı-seçkilik, diskriminasiyanı əsas götürərək Azərbaycan əleyhinə, Türkiyə əleyhinə təbliğatlar aparır. Bunlar öz aləmlərində yenidən ikinci bir Ermənistan dövləti yaratmaq istəyirlər.

Cümşüd Nuriyev bu haqda fikrini belə izah edib: “Bu zaman təbii ki, bunlara dil verənlər var. Xüsusilə, bunlar içərisində Fransa və İran ilk sırada dayanır. Cənab Prezidentin çıxışından sonra İranın xarici işlər nazirinin sözçüsünün çıxışı təəssüf ki, kifayət qədər təhdidedicidir. İranın Xarici İşlər Nazirliyinin mövqeyini bildirən rəsmi bir məlumat mənim diqqətimi çəkdi. Xarici işlər nazirinə sual verirlər ki, nədən bir müsəlman dövləti olmağınıza baxmayaraq Ermənistanın yanındasınız? Deyir ki, bu belə də lazımdır. Biz istəmirik ki, Türkiyə ilə Azərbaycanın arası yaxın olsun. Onlar nə qədər uzaq olsa, bir o qədər yaxşıdır. Əgər İran bu cür xarici siyasət yürüdürsə, Azərbaycandan nədən ayrı şeylər tələb edir, daha doğrusu, İsraillə bağlı məsələlərdə tələb irəli sürür. İsrailin dövlətçiliyini təhdid edir. İran başa düşməlidir ki, əgər 22 ərəb dövləti ola bilirsə, nədən bir yəhudi dövləti olmasın. Halbuki, yəhudilər dünyada ən qədim xalqlardandır. İranlılar bu şiə təbliğatından istifadə edib, ayır-buyur siyasətini həyata keçirirlər və bu gün də bununla məşğuldurlar.

Amma Ermənistan anlamalıdır ki, artıq 21-ci əsrin 21-ci ilidir. Bunlar bir il bundan öncə də çox yekə danışırdılar. Bəs noldu? Onların yanında heç kəs olmadı və Azərbaycan öz gücünü göstərdi. Azərbaycan ordusunun şücayəti bu qələbəni bizə gətirdi. Məhz Azərbaycan Prezidentinin vaxtı düzgün seçməsi, ordunun silahla təminatı və təchizatı ilə vaxtında məşğul olması, düzgün taktika həyata keçirməsi qələbəni qazandırdı. Bu zəfərdən



sonra da onlar elə başa düşürlər ki, guya, rus sülhməramlıları buradadır, onlar bir şey edəcək. Heç nə də edə bilməyəcəklər. 25 min erməni Azərbaycan üçün heç nədir. İstəyərlər, Azərbaycan qanunçuluğunu qəbul edərlər. Beləliklə, onlar da Azərbaycan vətəndaşı kimi bütün hüquqlardan yararlanarlar. Yox, müharibə istəyərlərsə, cənab Prezident onu gündəmə gətirdi. Heç olmasa ermənilər, otursun 3 il ərzində cənab Prezidentin müharibədən əvvəlki iki il ərzindəki çıxışlarına baxsın. Müharibənin gedişində və post-müharibə dövründəki bütün müsahibələrinə diqqət yetirsinlər. Görsünlər ki, İlham Əliyev dediyi hansı sözdən qaçıb? Ermənistanla bağlı dediyi hansı sözü həyata keçirməyib? Dağlıq Qarabağ, muxtariyyət bunlar hamısı tarixdə qalıb. Getmiş qatarın arxasınca ağlayırlar. Ermənilər bilsin ki, bu ağlamaq onlara xeyr gətirməyəcək. Qaldı ki, neo-faşizm, revanşizm, aşırı milliyətçilik Ermənistana heç vaxt xeyir gətirməyib, heç vaxt da xeyir gətirməyəcək”.

***Turqay Musayev***

# Yunan jurnalist Türkiyə və Pakistan kəşfiyyatından TƏLAŞLANIR!

**Yunanıstanlı jurnalist Andreas Mountzouroulias özünün tvitter səhifəsində yazıb ki, Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan Osmanlı imperiyasını bərpa etmək marağındadır və bu, onun xəyalıdır.**

Mountzouroulİasın yazdığına görə, Yunanıstan və Hindistan öz əlaqələrini möhkəmləndirməlidirlər. "Bu, bimiz münasibətlərin möhkəmləndirilməsi üçün əhəmiyyətlidir. İki ölkənin silahlı qüvvələri dərhal birgə hərbi təlimlərə başlamalıdır. Həm Hindistan, həm də Yunanıstan üçün sivilizasiyalarını inkişaf etdirmək və partnyorluq əlaqələrini artırmaq lazımdır", yazan Andreas Mountzouroulias təklifinin həyata keçirildiyi halda daha geniş Avrasiya regionunda mövcud olan Türkiyə və Pakistan ittifaqına qarşı balanslaşdırmanın əldə olunacağını hesab edir.



Yunan jurnalist onu da bildirib ki, ən təlaşlandırıcı aspekt Türkiyə MİT-i (Milli İstihbarat Teşkilatı - Milli Kəşfiyyat Təşkilatı) ilə ISI-nin (Pakistan Milli Kəşfiyyat İdarəsi) qarşılıqlı əməkdaşlıqlarıdır.

# Ekspertlər: ABŞ və Fransa erməniпərəst mövqedədir, Rusiya isə neytrallığını qoruyur

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

***Ekspertlər Azərbaycan-Ermənistan münasibətlərini, həmçinin ABŞ və Fransanın irəli sürdüyü "Qarabağa status" məsələnin mahiyyətini "Moskva-Baku" portalına şərh ediblər. Şərhləri oxucularımızın diqqətinə çatdırırıq.***



**Şərqşünas, politoloq Yuri Mavaşev:**

Rusiya Qarabağın statusu məsələsində ardıcıl və deməliyəm ki, müdrik mövqe tutur. Bu mövqe keçən payız Qarabağ müharibəsi zamanı təyin olundu və elə də qalır. Moskvanın vəzifəsi Cənubi Qafqazda son sülhün qurulması, bununla da digər vasitələrlə yanaşı, effektiv vasitəçi olduğunu bir daha təsdiq etmək və qonşu ölkələr arasındakı problemin həlli məsələsində sona çatmaqdır.

Birincisi, Vladimir Putin beynəlxalq hüquqi baxımdan Qarabağın Azərbaycanın bir hissəsi olduğunu dəfələrlə vurğulamışdır, eyni zamanda "hər bir tərəfin öz həqiqəti olduğunu" qeyd etmişdir. Status məsələsinin hazırda müzakirə mövzusu olmamasını Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 (10) Noyabr tarixli, Qarabağın statusu ilə bağlı bəndin olmadığı üçtərəfli bəyanatının məzmunu sübut edir. Moskva öz mövqeyini mütəmadi olaraq izah edir-ilk növbədə imzalanmış üçtərəfli bəyanatın bütün məqamları yerinə yetirilməlidir. Rusiya ən yüksək səviyyələrdə dəfələrlə bəyan etdi ki, onun fikrincə, Azərbaycan və Ermənistan arasında nəqliyyat və iqtisadi qarşılıqlı əlaqənin qurulması yolu ilə iki xalq arasında gündəlik səviyyədə bir növ qarşılıqlı əlaqəyə nail olmaq mümkündür. Nəticədə bu onların və ya digər dərəcədə yaxınlaşmalarına imkan verəcək. ... Və sonra, əgər belə bir məsələ hələ də aktual qalarsa, vəziyyəti müəyyən bir statusla həll etmək olar.



Bu yanaşma, həqiqətən də, son həftələrdə Ermənistanın xeyrinə yenidən qərəzli mövqe nümayiş etdirməyə başlayan Fransa və ABŞ-dan fərqli olaraq, bir vasitəçi olan Rusiyanın neytrallığından bəhs edir. Ötən ilin payızında Azərbaycanla Ermənistan arasında gedən müharibə zamanı bu fürsəti əldən verən Paris və Vaşinqtonun Qarabağ prosesinə daxildən girmək marağı açıq şəkildə görünür. Aydındır ki, Qərb oyunçularının bölgədəki proseslərə təsir etmək istəyi bu gün də qalmaqdadır. Və status məsələsini gündəmə gətirməklə, bununla da Ermənistanın mövqeyini dəstəkləməklə, Qərb ortaqları Ermənistan-Azərbaycan probleminin həllinin təkərlərinə bir çubuq qoyurlar. Azərbaycan deyir: "Gəlin sülh müqaviləsi imzalayaq və bölgədə normal bir həyat yaşayaq". Ermənistan cavab verir: "Xeyr, yalnız Qarabağın statusu bizim xeyrimizə tanınarsa". Fransa və ABŞ nəinki hər iki ölkədəki erməni diasporasının güclü təsirindən, həm də Rusiyanı Zaqafqaziyadan çıxarmaq səylərindən yanaşaraq, qəbul edilən razılaşmanı pozmaq istəyindən erməni tərəfi ilə oynayır, Rusiyanın başladığını sona çatdıra bilməyəcəyini göstərmək istəyir.

Bu baxımdan, Moskva üçtərəfli bəyanatın həyata keçirilməsində daha fəal olmalı, o cümlədən informasiya sahəsində bu istiqamətdə effektivliyini göstərməlidir. Üçtərəfli bəyanat kifayət qədər ümumi ifadələr ehtiva etdiyindən, bəlkə də Rusiya yenidən Ermənistan və Azərbaycan liderlərini danışıqlar masasına əyləşdirməli və müqavilələrə, məsələn, nəqliyyat və iqtisadi əlaqələrin bərpası üçün nəzərdə tutulan müqavilələrə imza etmələrinə çalışmalıdır. Bir vasitəçi olaraq təsirli olduğunu göstərmək üçün Rusiya tərəflərlə işinin konkret nəticələrini təqdim etməlidir. Moskva, üçtərəfli bəyanatın icrası baxımından vəziyyəti yenidən nəzərdən keçirmək üçün ilin sonuna qədər liderlərin görüşünü təşkil etmək məcburiyyətindədir.

Bəyanatı imzaladıqdan sonra ilk il xüsusilə vacibdir. Rusiya bəyanatın canlılığını və məqsədəuyğunluğunu şübhə altına almaq üçün bütün cəhdlərin qarşısını almalıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ ermənilərinə muxtariyyət verilməyəcəyi ilə bağlı bəyanatına gəlincə, bu, əslində, 30 ilə yaxındır ki, ərazilərinin işğalına, Qarabağ probleminə və tarixinə əsaslanan məntiqi bir mövqedir. Radikal separatizm ermənilər tərəfindən qondarma ikinci erməni "dövləti" nin özünü elan etməsinə, etnik təmizləməyə, bir milyon qaçqına və keçən ilin payızına qədər münaqişənin həllində durğunluğa səbəb olub. Beynəlxalq birlik Ermənistana qarşı sanksiyalar tətbiq etməli idi ki, nəhayət BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etsin. Yəni, Azərbaycan sadəcə öz vəziyyətinə əsaslanaraq nəticə çıxardı. Amma Bakı mütəmadi olaraq bəyan edir ki, Qarabağ erməniləri Azərbaycan vətəndaşı ola bilərlər və Azərbaycan Respublikasının çoxmillətli əhalisi ilə eyni hüquqlara malikdirlər. Bildiyiniz kimi, hələ də Azərbaycanda 30 minə yaxın erməni yaşayır.




Rusiya ABŞ -la olduqca mürəkkəb münasibətlərə baxmayaraq, hesab edir ki, əgər Amerika və Fransa tərəfdaşları bu prosesin qurulmasında bir şəkildə kömək edə bilsələr, niyə də sülh prosesində iştirak etməsinlər. Amma bu, siyasi oyun və təhlükəli bir oyundur. Çünki indi qərb tərəfdaşların prosesə fəal müdaxiləsini görürük. Sülh yolu ilə, Qarabağ nizamlanmasında əldə etdiyi uğurları itirməmək üçün Rusiya fəaliyyətini artırmalıdır.

**Siyasi və İqtisadi Kommunikasiya Agentliyinin baş analitiki Mixail Neyjmakov:**

- Amerika Birləşmiş Ştatları və Fransa rəhbərliyi, bir tərəfdən, Cənubi Qafqazda maraqları olan digər güclərə (Rusiya, Türkiyə və İran) öz daxili maraqlarının bir hissəsini nümayiş etdirir. ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi 2021-ci ilin avqustunda "Dağlıq Qarabağın statusu hələ də həll edilməyib" deyəndə, təbii ki, bu, Vaşinqtonun İrəvana doğru atdığı addım idi.

Nikol Paşinyanın komandası üçün kənar oyunçuların "Dağlıq Qarabağ problemi həll olunmadığı və status məsələsinin həll olunmadığı" tezisi ilə razılaşması (Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın sentyabr ayında dediyi kimi) bir fürsətdir. O, Ermənistan hökumətinin mövqeyini müdafiə etməyə müttəfiq tapmağa hazır olduğunu vurğulayıb. Bu vəziyyətdə Vaşinqton və Paris ümid edir ki, lazım gələrsə, bu mövzudan istifadə edərək Bakıya təzyiq göstərə bilərlər.

Ümumiyyətlə, yaxın gələcəkdə ATƏT-in Minsk Qrupunun himayəsi altında danışıqlardan imtina olunacağı ehtimalı azdır. Təsadüfi deyil ki, İlham Əliyev son vaxtlar Minsk Qrupu belə bir təşəbbüslə çıxış edərsə Nikol Paşinyanla görüş keçirəcəyini istisna etmirdi.

Qarabağdakı erməni icması daxilində Azərbaycanın tərkibində muxtariyyət statusu almaq fikrini dəstəkləməyə və ya heç olmasa neytrallaşdırmağa hazır olan heç bir seqment yoxdur. Ona görə də indi rəsmi Bakı münaqişənin həlli üçün belə bir yanaşma təklif etsə belə, bu məsələdə məqsədlərin reallaşmasına yaxınlaşdırmazdı. Rəsmi İrəvan, təbii ki, problemin həlli üçün belə bir ssenarini dəstəkləməzdi. İlham Əliyevin oxşar bir tezisi təqdim etdiyi bir müsahibəni Fransa 24 telekanalı kifayət qədər geniş beynəlxalq auditoriyaya yayımladı. Bu cür qarşıdurmaların tərəflərinə açıq bir rəğbət bəsləməyən ümumi xarici ictimaiyyət, bir qayda olaraq, onları daha yaxşı başa düşməklə həll yolları haqqında daha az sərt ifadələrə baxır. Buna baxmayaraq, Cənubi Qafqazın hüdudlarından kənarda, Azərbaycan Prezidentinin bu iradəsi, ilk növbədə, erməni və azərbaycanlı icmalarının nümayəndələrinin və ya media ekspert mühitinin diqqətini çəkə bilər və onların münaqişə tərəflərinə verdiyi qiymətlər artıq formalaşmışdır.



***Elçin Bayramlı***

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

1 oktyabr

QARABAĞ AZƏRBAYCANDIR!


## Vəhşi qabanlar Şakiraya hücum edib



Kolumbiyalı müğənni Şakira iki çöl donuzunun, vəhşi qabanın hücumuna məruz qalıb. SİA xəbər verir ki, bu barədə Barselonada çıxan "Periodico" qəzeti məlumat dərc edib. "İki çöl donuzu parkda kolumbiyalı müğənni Şakiraya hücum etdi. Müğənninin özündə hər şey qaydasındadır", deyə sözügedən qəzet yazır.

Hadisə çərşənbə günü baş verib. Şakira instaqram səhifəsində qabanların onun çantasını və telefonunu meşəyə apardığını, ancaq tapa bildiyini qeyd edib. "Huffpost" nəşrinə görə isə, müğənninin başına gələn bu hadisə İspaniyanın Barselonadakı parklarından birində baş verib.

***İnam Hacıyev***

## Messidən sonra "Barselona" çökür...



"Barselona" antirekorda imza atıb. Qol.az "Opta"ya istinadən xəbər verir ki, Kataloniya təmsilçisi tarixində ilk dəfə olaraq ilk iki avrokubok matçında qol vurmayıb. UEFA Çempionlar Liqasında E qrupunda mübarizə aparan Ronald Kumanın baş məşqçisi olduğu komanda ilk turda "Bavariya", ikinci turda "Benfika"ya eyni hesabla (0:3) uduzub. Xalı olmayan "Barselona" turnir cədvəlində sonuncu pillədə qərarlaşıb. Qeyd edək ki, Kataloniya klubu ÇL-də növbəti oyununu "Dinamo"ya (Kiyev) qarşı keçirəcək.

## DSX sərhəd pozuçusunu narkotiklə saxladı



Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin, psixotrop maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində tədbirlər davam etdirilir. DSX-dən SİA-ya bildirilib ki, sentyabr ayı ərzində Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının "Horadiz" və "Göytəpə" sərhəd dəstələrinin əməkdaşlarının sayıqlığı nəticəsində təxmini çəkisi 28 kiloqram 240 qram narkotik vasitəyə, 1620 ədəd psixotrop və güclü təsirli dərman preparatlarına bənzər maddələrin, eləcə də silah-sursatın dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınmışdır.

Dövlət sərhədinin gücləndirilmiş mühafizəsinin təmin edilməsi üzrə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 06 sentyabr tarixində Biləsuvar şəhəri, 15 sentyabr tarixində Cəbrayıl rayonunun Əmirvarlı və Cəlilabad rayonunun Kövüzbulaq kəndləri istiqamətində dövlət sərhədinin yaxınlığında ümumi çəkisi 18140qram narkotik vasitəyə bənzər maddələr (15515 qram "heroin", 375 qram "marixuana", 310 qram "metamfetamin" və 2300 qram növü bilinməyən dərman) aşkarlanaraq götürülmüşdür.

Sentyabr ayının 30-da saat 03:40 radələrində Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının ərazisində xidmət aparan sərhəd naryadı tərəfindən dövlət sərhədinin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində pozulmasına dəlalət edən əlamətlər aşkar edilmiş, sərhəd zastavası dərhal "Silaha" komandası ilə qaldırılmış, ərazi qapadılmışdır. Keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ərazidə əlində bağlama ilə hərəkət edən bir nəfər şübhəli şəxs saxlanılmışdır.

Araşdırma zamanı qeyd olunan şəxsin əvvəllər dəfələrlə məhkum olunmuş Bakı şəhər sakini 1976-cı il təvəllüdlü Ağayev Asif Ağacəfər oğlu olması müəyyənləşdirilmiş, onun əlindəki bağlamaya baxış zamanı içərisində ümumi çəkisi 10100 qram narkotik vasitəyə bənzər maddələr (9100 qram "heroin", 300 qram "metamfetamin", 700 qram "marixuana" və 1620 ədəd güclü təsirli dərman preparatları), 1 ədəd 9 mm kalibrli "AKREP 2004 magnum" markalı tapança, 1 ədəd güllə darağı və 2 ədəd güllə aşkar olunaraq götürülmüşdür. Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Dünyada təbii qaz bahalaşır



Nyu-Yorkun NYMEX əmtəə birjasında təbii qaza olan fyuçers kotirovkalarının qiyməti artıb. SİA-nın məlumatına görə, noyabrda çatdırmaq şərti ilə təbii qaza olan fyuçerslərin qiyməti 1 mln. BTU-ya (British thermal unit - Britaniya istilik vahidi) görə 1,06% artaraq 5,515 ABŞ dolları təşkil edib.

bakcell

## Bakcell pandemiya dövründə gənclərin təhsilinə dəstək göstərib

**Bakcell şirkəti "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası ilə birlikdə valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə dəstək göstərir.**

Uzunmüddətli əməkdaşlıq çərçivəsində həyata keçirilən daha bir layihə - "COVİD-19 pandemiyası zamanı gənclərin təhsilinin kəsintisiz davam etməsinə dəstək" təşəbbüsü sayəsində 30 nəfər gənc karantin zamanı təhsillərini onlayn davam etdirə bilib.

Bu məqsədlə Bakı və Gəncədə yerləşən SOS Uşaq Kəndləri lazımı sayda kompüter və internet bağlantısı ilə təchiz olunub. Nəticədə, təşkilatın himayəsindəki gənclərin təhsil və davamiyyət göstəriciləri pandemiyadan öncəki 2018/2019-cu təhsil ilinin göstəricilərini üstələyib.

"COVİD-19 bütün dünyanı dəyişib və biz KSM Strategiyamızın ən prioritet istiqamətlərindən olan gənclərin təhsilinə töhfə vermək üçün yeni üsullar tapmalı olduq. Biz daha çox uşağın keyfiyyətli təhsil alması üçün əlimizdən gələni edirik, çünki uşaqlar bizim gələcəyimizdir" deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Qeyd edək ki, Bakcell 2009-cu ildən etibarən "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası ilə əməkdaşlıq çərçivəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə öz dəstəyini göstərir. Bu əməkdaşlıq çərçivəsində həyata keçirilən "Öz biznesinə başla və təkmilləşdir" layihəsi "Milli KSM Mükafatı 2018? mükafatına layiq görülüb. Layihə assosiasiyanın himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq məqsədilə icra olunub. Layihədə iştirak edən gənclər "Bakcell"in maliyyə dəstəyilə öz kiçik bizneslərini qurublar.

Bakcell şirkətinin həyata keçirdiyi "Bakcell Stars" KSM proqramı ölkənin ən geniş-miqyaslı korporativ sosial məsuliyyət proqramlarından biridir. Proqramın əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənclər üçün bərabər hüquq və imkanların yaradılması, onların cəmiyyətə inteqrasiyasının dəstəklənməsi ilə yanaşı gənclərin təhsili, bacarıqlarının artırılması, gələcəkdə iş qura bilmə qabiliyyətlərinin təmin edilməsi və sosial rifahının yaxşılaşdırılmasıdır.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600